YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
19 iyul 2024-cü il, cümə
№ 127 (6713)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!




# Biz etibarlı tərəfdaş kimi hədəfə doğru irəliləyirik

Bax səh. 2

## İtaliya Orta Dəhlizdə Azərbaycanın ən yaxın tərəfdaşı olacaq

Bax səh. 2

## İslam dünyasının nəbzi Şuşada döyünür

Azərbaycan xalqının qəlbində xüsusi yeri olan, uca dağlar qoynunda qərar tutaraq ətrafa hakim kəsilən əziz Şuşamız yenidən qonaq-qaralıdır. Burada Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "İslam dünyasında qadınlar: ənənələr və çağırışlar" mövzusunda konfrans keçirilir. Nazirlər Kabinetinin sərəncamı ilə təsdiqlənən Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı "Tədbirlər Planı" çərçivəsində təşkil olunan tədbirə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, VI çağırış Milli Məclisin deputatı, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Mərakeş Krallığının həmrəylik, sosial inteqrasiya və ailə naziri xanım Aavatif Hayar, ictimaiyyət nümayəndələri, media təmsilçiləri və müxtəlif dövlət qurumlarının əməkdaşları qatılıblar.

**Bütün İslam dünyasının rəmzlərindən biri**

Şuşanın təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub. 1992-ci il 8 may tarixində işğal altına düşənədək Şuşa özünün bəxtəvər günlərini yaşayırdı - şəhərdə hər cəhətdən qaynar mühit var idi, burada Azərbaycan və keçmiş ittifaq miqyasında müxtəlif tədbirlər, poeziya günləri, festivallar keçirilirdi.

Qarabağ müharibəsi, işğal bütün bunlara son qoydu. İşğalın davam etdiyi üç onillik ərzində mənfur düşmən Şuşamızın sinəsinə yaralar vurub, burada ağlasığmaz vandalizm əməlləri törədib, şəhəri erməniləşdirməyə çalışıb. Lakin bütün bunlar heç bir nəticə verməyib. "İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik". Bunu Azərbaycan Prezidenti İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə növbəti dəfə Şuşaya səfəri çərçivəsində keçirilən Vaqif Poeziya Günlərinin rəsmi açılış mərasimində etdiyi çıxışında deyib. Şuşanın tariximizdə, milli mədəniyyətimizdə əvəzolunmaz yerini...

Bax səh. 3



Bax səh. 5

## "Birləşdik-2024" hərbi təlimi

## Azərbaycan-Rumıniya əlaqələri...

Bax səh. 5

## Asiya Bankı "yaşıl enerji"ni maliyyələşdirəcək

Bax səh. 4

## Maqdalena Qrono gözləntiləri doğruldacaqmı?

Bax səh. 6

## Yeni Dünya Müharibəsi ehtimalı...

Bax səh. 5

## Parlament seçkiləri beynəlxalq təşkilatların diqqətində

Ölkəmizdə keçiriləcək parlament seçkiləri ictimai-siyasi gündəmin əsas mövzularından biridir. Seçki günü yaxınlaşdıqca siyasi fəallıq da əhəmiyyətli dərəcədə artır. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev iyunun 28-də VI çağırış Milli Məclisin buraxılması və növbədənkənar parlament seçkilərinin təyin edilməsi haqqında sərəncam imzalayıb. Dövlət başçısının sərəncamına əsasən, seçkilər 2024-cü il sentyabrın 1-də keçiriləcək.

Bir sıra beynəlxalq təşkilatlar artıq sentyabrın 1-də Azərbaycanda keçiriləcək parlament seçkilərini müşahidə edəcəklərini bəyan ediblər. Təbii ki, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan, bütün sahələrdə olduğu kimi, demokratik prinsiplərə sədaqət, seçkilərin azad, şəffaf və ədalətli keçirilməsi istiqamətində siyasi iradə nümayiş etdirib. Ölkəmiz istər seçki qanunvericiliyinin təkmilləşdirilməsi, istərsə də prosesin şəffaf və bərabər prinsiplər əsasında inkişafı yolunda əsaslı addımlar atıb. Bu baxımdan, beynəlxalq qurumların qarşıdan gələn parlament seçkilərinə verdiyi önəm anlaşılandır.

Yeri gəlmişkən, sentyabrın 1-də keçiriləcək parlament seçkilərini izləmək üçün artıq bir sıra təşkilatlara dəvət göndərilib. Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımov jurnalistlərin suallarına cavab olaraq bildirib ki, MSK 26 ölkənin seçki qurumuna müşahidəçilik üçün dəvət göndərib. Bundan əlavə, MDB Parlamentlərarası Assambleyası (MDB PA) sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkiləri izləmək üçün müşahidəçilər qrupu formalaşdırır. "Hazırda MDB PA-ya üzv dövlətlərin parlamentlərinin nümayəndələrindən, Assambleyanın rəsmilərindən və MDB PA-nın Demokratiyanın İnkişafının Monitorinqi Beynəlxalq İnstitutunun ekspertlərindən müşahidəçilər qrupu yaradılır", -deyə qurumun mətbuat xidmətindən bildirilib.

Onu da qeyd edək ki, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinə uyğun olaraq seçkilərin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri addımları atır. Belə addımlardan biri də seçki komissiyalarının üzvləri üçün treninqlərin, seminarların...

Bax səh. 4

## Azərbaycanın yaşıl gündəliyi

Bax səh. 6



# “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısı keçirilib

## Prezident İlham Əliyev: Strateji tərəfdaşlıq Avropaya qaz təchizatımızın 2027-ci ilin sonuna qədər ikiqat artırılmasını nəzərdə tutur










Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin dəvəti ilə “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısında iştirak etmək üçün İngiltərəyə işgüzar səfər edib.

Oksforddakı Blenheim sarayına gələn dövlətimizin başçısını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmer qarşılayıb.

Prezident İlham Əliyev Oksfordda qarşı tərəfin müraciətinə əsasən Lüksemburq Böyük Hersoqluğunun Baş naziri Lyuk Friden ilə görüşüb.Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələr müzakirə olunub. Lüksemburqun Baş naziri Azərbaycan və region haqqında daha çox məlumatın əldə edilməsinin və regionun sabitliyinin ölkəsi üçün vacibliyini vurğulayaraq Lüksemburqun regional siyasətinin balanslı xarakter daşıdığını diqqətə çatdırıb. Dövlətimizin başçısı regional proseslər barədə məlumat verərək bölgəyə münasibətdə balanslı siyasətin və bütün tərəflərin mövqeyinə hörmətlə yanaşılmasının önəmini qeyd edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunularaq, qarşılıqlı hörmət və etimad əsasında əlaqələrimizin inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğu vurğulanıb. Azərbaycan ilə Lüksemburq arasında yüksək texnologiyalar, səhiyyə, investisiyalar, nəqliyyat daşımaları və digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb. Azərbaycanın Avropa İttifaqı və İttifaqa üzv ölkələr ilə çox yaxın əlaqələrə malik olduğu qeyd edilib. Avropa Siyasi Birliyi platformasının müzakirələrin aparılması üçün vacib məkan olduğu bildirilib. Görüşdə Azərbaycanın COP29-a ev sahibliyi etməsinin əhəmiyyəti də diqqətə çatdırlıb. Lüksemburqun Baş naziri bu tədbirdə iştirak etmək niyyətində olduğunu bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 18-də “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısı çərçivəsində İsveçrə Konfederasiyasının Prezidenti Viola Amherd ilə söhbət edib. Söhbət zamanı Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlər və regional sülh gündəliyinin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb, İsveçrə şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işlərinə töhfəsi, eyni zamanda COP29 və iqlim dəyişmələri barədə də fikir mübadiləsi aparılıb.

Prezidenti İlham Əliyev “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısı çərçivəsində Macarıstanın Baş naziri Viktor Orban ilə də görüşüb. Dostluq şəraitində keçən söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlər və əməkdaşlıqla bağlı məsələlər müzakirə olunub. Macarıstanın Baş nazirinin Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Şuşaya səfəri və bu çərçivədə keçirilən görüşlər məmnunluqla xatırlayıb.

Prezident İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşüb. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri müzakirə olunub. COP29-un keçirilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik edən Litva Prezidenti bu tədbirə dəvətə görə təşəkkürünü bildirib, Bakıda COP29 çərçivəsində dövlətimizin başçısı ilə görüşəcəklərini vurğulayıb. Söhbət zamanı regional sülh gündəliyi və Azərbaycan-Avropa İttifaqı əlaqələri barədə fikir mübadiləsi aparılıb. Böyük Britaniya tərəfinin Münxen Təhlükəsizlik Konfransı formatında olduğu kimi, Ermənistanla Azərbaycan arasında görüşün keçirilməsi barədə təklifinin Ermənistan tərəfindən müsbət cavablandırılmaması çox böyük təəssüf hissi ilə vurğulanıb.

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda qarşı tərəfin müraciətinə əsasən Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşüb. Görüşdə Finlandiya Prezidenti ATƏT-in fəaliyyətdə olan sədri qismində regiona səfərini və bu yaxınlarda dövlətimizin başçısı ilə telefon danışığını məmnunluqla xatırladıb. Söhbət zamanı Azərbaycanla Finlandiya arasında ikitərəfli münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparılıb, Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar məsələlərə toxunulub. Dövlətimizin başçısı sülh gündəliyinin irəli aparılması və sülh müqaviləsinin imzalanması üçün Ermənistanın Konstitusiyasında müvafiq dəyişikliklərin edilməsinin vacibliyini bir daha vurğulayıb.

Görüşdə Avropanın enerji təhlükəsizliyi məsələləri müzakirə olunub. Finlandiya Prezidenti böyükmiqyaslı tədbir olan COP29-un ölkəmizdə keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik edib, tədbirdə məmnuniyyətlə iştirak edəcəyini deyərək, onun təşkilində Azərbaycana uğurlar arzulayıb.

Söhbət zamanı Münxen Təhlükəsizlik Konfransı formatında olduğu kimi, Ermənistanla Azərbaycan arasında görüşün keçirilməsi barədə Böyük Britaniyanın təklifinin Ermənistan tərəfindən müsbət cavablandırılmamasının təəccüb doğurduğu bildirilib, bunun başadüşülən olmadığı çox böyük təəssüflə qeyd edilib.

Dövlətimizin başçısı Oksfordda qarşı tərəfin müraciətinə əsasən Çex Respublikasının Baş naziri Petr Fiala ilə də görüşüb. Görüşdə ölkələrimiz arasında siyasi dialoqdan məmnunluq ifadə olunub. Petr Fiala Azərbaycan ilə Çexiya arasında münasibətlərin strateji xarakter daşıdığını, əlaqələrimizin çox möhkəm təməllər əsasında qurulduğunu və münasibətləri bundan sonra da inkişaf etdirmək niyyətində olduğunu bildirib.

Azərbaycan-Çexiya əlaqələrinin dinamik surətdə inkişaf etdiyini deyən dövlətimizin başçısı münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşımasından məmnunluğunu ifadə edib. Görüşdə Azərbaycan ilə Çexiya arasında enerji, o cümlədən neft-qaz sahəsində əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Hazırda Azərbaycan neftinin Çexiyaya ixrac edildiyi, həmçinin qaz sahəsində əməkdaşlıq üçün böyük perspektivlərin olduğu vurğulanıb. Azərbaycan qazının artıq Çexiyanın qonşu ölkələrinə ixracının təmin edildiyi və ixrac üçün yaxşı imkanların olduğu diqqətə çatdırılıb. Söhbət zamanı iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi. Çexiya şirkətlərinin Azərbaycandakı fəaliyyətinə toxunuldu, siyasi, iqtisadi, ticarət, investisiyalar sahələrində əməkdaşlıq məsələləri də müzakirə olunub.

Azərbaycan Prezidenti İlham Əliyev qarşı tərəfin müraciətinə əsasən Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə də görüşüb. Almaniya Kansleri Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyini dəstəklədiyini diqqətə çatdırıb. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kanslerinin təşəbbüsü ilə Azərbaycan Prezidentinin Kansler Olaf Şolts və Ermənistanın baş naziri Nikol Paşinyan ilə keçirilmiş birgə görüşünün vacibliyi bildirib. Bunun ardınca Almaniya tərəfinin dəstəyi və ev sahibliyi ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşünün keçirildiyi qeyd olunub.

Dövlətimizin başçısı Ermənistan ilə Azərbaycan arasında danışıqlar prosesinin tərkib hissəsi kimi sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində əldə olunmuş uğurları xüsusi qeyd edib, delimitasiya prosesi ilə əlaqədar sənədlərin razılaşdırıldığını və prosesin bu xətt üzrə davam edəcəyini bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan sülh gündəliyini, sülh müqaviləsinin tezliklə imzalanmasını və sülh prosesini dəstəkləyir. Amma bunun üçün, ilk növbədə, Ermənistanın konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar və Azərbaycanın Qarabağ regionunun Ermənistanla birləşməsini nəzərdə tutan müddəalar dəyişdirilməli, konstitusional əsasda Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda ABŞ Dövlət katibi Antoni Blinkenin dəstəyi ilə keçirilmiş görüşündə də bu məsələlərin müzakirə olunduğu vurğulanıb.

Görüşdə COP29-la əlaqədar hazırlıq prosesi müzakirə olunub və Azərbaycanın ilə Almaniyanın bu sahədəki əməkdaşlığı yüksək qiymətləndirilib. Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə də yüksək dəyərləndirilib, Almaniya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparıldı və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Prezident İlham Əliyev “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısının açılış plenar sessiyasında iştirak edib. Oksfordda “Avropa Siyasi Birliyi”nin 4-cü Zirvə toplantısı çərçivəsində “Enerji və bağlantı” mövzusunda dəyirmi masada çıxış edən dövlətimizin başçısı bildirib ki, enerji sahəsində Bakıda müəyyənləşdirdiyimiz strateji tərəfdaşlıq bizim Avropaya qaz təchizatımızın 2027-ci ilin sonuna qədər ikiqat artırılmasını nəzərdə tutur. “Biz bu hədəfə doğru irəliləyirik. 2021-ci ildə Avropa qitəsinə bizim qaz təchizatımız ildə 8 milyard kubmetr təşkil edirdisə, bu il bu göstərici 13 milyard kubmetrə yaxın olacaq. 2021-ci ildə ümumi ixrac 18 milyard kubmetr təşkil edirdisə, bu il bu göstərici 25 milyard kubmetr olacaq. İxracın yarıdan çoxu Avropaya gedir. Azərbaycanın təbii qazını səkkiz ölkə alır, onlardan beşi - Bolqarıstan, Yunanıstan, İtaliya, Macarıstan və Rumıniya Avropa İttifaqının üzvüdür. İkisi İttifaqa daxil olmaq üçün namizəd ölkədir - Gürcüstan və Serbiya, eləcə də Türkiyə. Sessiyadan əvvəl cənab Baş nazirlə müzakirə etdik ki, dünən Sloveniya-Azərbaycan qaz əməkdaşlığı istiqamətində mühüm hadisə baş verdi. Ümid edirik ki, biz bir neçə aya Sloveniya bazarına daxil ola biləcəyik. İndi Avropa interkonnektor layihələri icra olunduqca Azərbaycan qazının daha çox Avropa ölkəsinə ixrac edilməsi üçün əlavə imkanlar olacaq”.

Prezident İlham Əliyev bildirib ki, Avropa Komissiyası Azərbaycanı enerji üzrə etibarlı tərəfdaş və ümum-Avropa qaz təchizatçısı adlandırmışdır. “Bu, çox böyük məsuliyyətdir və əlbəttə ki, biz yalnız Avropaya 2027-ci ilə qədər ildə 20 milyard kubmetr qazla təchiz etmək üzrə öz öhdəliyimizi yerinə yetirmək üçün əlimizdən gələni etməyə çalışırıq. Bu, bizim hədəfimizdir. Bizim resurslarımız və infrastrukturumuz var. Yeni tərəfdaşlarla, əsasən Sloveniya və Slovakiya ilə danışıqlar prosesini sürətləndirməliyik, həmçinin mövcud bazarlara qaz təchizatımızın artırılması üzərində çalışmalıyıq. Çünki bizim İtaliyaya təchizatımız 9 milyard kubmetrdirsə, İtaliyaya bizdən 20 milyard kubmetr qaz lazımdır. Bu, sadəcə, qazımıza olan tələbatın bir nümunəsidir. Digər bir məqam isə qazıntı yanacağı və onun müəyyən demonizasiyası ilə bağlıdır. Mən bu məsələ ilə bağlı şərhlərimi daha sonra bildirərəm. Bizim enerji layihələrinə gəlincə, Azərbaycan etibarlı təchizatçı olub. Demək olar ki, 20 il ərzində biz tarixdə ilk dəfə olaraq Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən kəmər təşəbbüsü ilə çıxış etdik və qonşularımızla birlikdə onu istismara verdik. İndi biz Aralıq dənizində Türkiyənin Ceyhan limanından neftimizi müxtəlif təyinat nöqtələrinə, o cümlədən Azərbaycanın xam neftindən əhəmiyyətli dərəcədə asılı olan çox həssas nöqtələrə nəql edirik. Bəzi ölkələrdə Azərbaycan xam neftinin istehlakı onların tələbatının 50 və ya daha çox faizini təşkil edir. Üç ildən artıqdır ki, biz mühüm qaz təchizatçısına çevrilmişik. Bizim qaz kəmərimiz - Cənub Qaz Dəhlizi 2020-ci il dekabrın 31-də istismara verilib. Sözsüz ki, müqavilələr bundan əvvəl imzalanmışdı və biz avropalı tərəfdaşlarımızı dərhal təchiz etməyə başladıq. Bundan əvvəl bizim tərəfdaşlarımız yalnız Gürcüstan və Türkiyə idi. Beləliklə, qismən Adriatik dənizinin dibi ilə uzanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi - Cənub Qaz Dəhlizi istismara verildikdən sonra biz dərhal Avropaya təchizata başladıq”.

Prezident İlham Əliyev “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısının bağlanış plenar sessiyasında iştirak edib. Dövlətimizin başçısı Oksfordda Zirvə toplantısının iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətdə də iştirak edib.

# İtaliya Orta Dəhlizdə Azərbaycanın ən yaxın tərəfdaşı olacaq

Ötən gün Bakıda iqtisadiyat naziri Mikayıl Cabbarov ilə İtaliyanın Azərbaycandakı səfiri Luka Di Canfrançesko arasında görüş zamanı iki ölkə arasında iqtisadi tərəfdaşlığının prioritetləri müzakirə edilib və dayanıqlı təşəbbüslərin artırılması təklif olunub. Görüşdə tərəflərin iqtisadi-ticarət əməkdaşlığının dinamik surətdə inkişafı yüksək dəyərləndirilib, Azərbaycan ilə İtaliya arasında əlaqələrin xüsusilə enerji sahəsində daha dinamik xarakter daşıdığı və son illərdə qeyri-nef sahələrini, o cümlədən informasiya-kommunikasiya texnologiyaları, nəqliyyat, kənd-təsərrüfatı, “yaşıl” enerji və digər sektorları əhatə etdiyi bildirilib.

İtaliya Respublikası ilə Azərbaycan arasında qarşılıqlı faydalı münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır, bir-birinin maraqlarına hörmət prinsiplərinə əsaslanır.

Ölkələrimiz arasında əlaqələr hər zaman yüksək səviyyəsi, çoxşaxəliliyi və nümunəvi dinamikası ilə seçilib. İtaliya Avropa İttifaqının üzv ölkələri arasında Azərbaycanın bir nömrəli siyasi, iqtisadi və ticarət tərəfdaşıdır. İtaliya ikitərəfli müstəvidə Azərbaycanın strateji tərəfdaşı olmaqla yanaşı, çoxtərəfli müstəvidə də Azərbaycanın sıx əməkdaşlıq etdiyi vacib ölkədir. Xüsusilə, İtaliya Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığının güclənməsinə fəal dəstək verən ölkədir.

Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri münasibətlərin inkişafına böyük təkan verir. Prezident İlham Əliyevin İtaliyaya səfəri münasibətlərin inkişafında yeni mərhələ açıb. Ümumiyyətlə, Azərbaycan Prezidentinin ən çox səfər etdiyi ölkələrdən biri İtaliyadır, 2020-ci ildə sayca 7-ci səfər zamanı ümumilikdə 28 sənəd imzalanıb ki, siyasi, müdafiə, iqtisadi-ticarət, energetika, yüksək texnologiyalar, nəqliyyat, infrastruktur, mədəni, elmi, turizm, idman, qida təhlükəsizliyi, paytaxtlar səviyyəsində əməkdaşlıq üçün yeni təməllər qoyulub.

Həmin sənədlər sırasında “Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə” müstəsna əhəmiyyət daşıyır.

İtaliya Avropa İttifaqının üzv ölkələri arasında Azərbaycanın ən böyük iqtisadi- ticari tərəfdaşıdır. 2023-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 15,6 milyard dollar təşkil edib. İxracının dəyəri 15 milyard 208 milyon 67 min dollar, idxalının dəyəri isə 477 milyon 903 min dollar təşkil edib. Hazırda İtaliyanın Cənubi Qafqaz ölkələri ilə xarici ticarətinin 92 faizi Azərbaycanın payına düşür. Azərbaycanda sənaye, tikinti, ticarət,



kənd təsərrüfatı, rabitə, xidmət və digər sahələrdə 100-dən çox İtaliya şirkəti fəaliyyət göstərir.

İki ölkə arasında Çoxtərəfli Strateji Əməkdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması əlaqələrin coğrafiyasını artırmaqla və şaxələndirməklə Roma ilə Bakı arasında olan iqtisadi körpünü daha da möhkəmləndirib.

İtaliya işğaldan azad edilən bölgələrin bərpası işində də fəal iştirak edir, 2 ildir ki, bu ərazilərdə enerji infrastrukturlarının texniki təchizatında fəal yer alır. İtaliyanın “Ansaldo Energia” şirkəti Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunan 4 ədəd 110 kV-luq yarımstansiyanın avadanlıqlarla təchizatını təmin edib.

İtaliya İnsan Hüquqları Federasiyası-İtaliya Helsinki Komitəsinin sədri Antonio Stanqo Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki mina probleminin miqyasının böyük olduğunu və Azərbaycan hökumətinin bu təhlükəni aradan qaldırmaq üçün böyük səylər göstərdiyini qeyd edərək öz ölkəsinin bu prosesdə kömək etməyə hazır olduğunu, eləcə də beynəlxalq həmrəyliyin yaranmasında təşəbbüskarlıq edəcəyini bildirib, İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto Fratin işğaldan azad edilmiş ərazilərdə İtaliya şirkətlərinin iştirakını müzakirə olunduğunu vurğulayıb. Qeyd edək ki, yeni mərhələdə İtaliya şirkətlərinin bu bölgədə təmsil olunması və bərpa olunan enerji sahəsində əməkdaşlıq perspektivləri istisna deyil. Bərpaolunan energetika və ekodayanıqlı texnologiya sahəsində İtaliyanın uzunmüddətli təcrübəsi var. Günəş, külək və geotermik sahələrdə bərpaolunan enerji mənbələrinin istifadəsində zəngin təcrübəyə malikik. İtaliyanın 432 minə yaxın şirkəti son 15 ildə biotexnologiyaların inkişafına öz dəstəyini göstərmişdir. Xüsusilə biotexnologiyalar sahəsində şirkətlərin sayı 31,2 faiz təşkil edir, emal sahəsində isə 35,8 faizə bərabərdir. Bu təcrübə nəzərə alınaraq Azərbaycan bu istiqamətdə italyan şirkətləri ilə imkanları səfərbər etməyi planlaşdırır. Eləcə də İtaliya “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi” vasitəsilə Azərbaycandan “yaşıl enerji”nin təchiz edilməsində maraqlı olduğunu bəyan edib.

Qafqazın ən mühüm geostrateji nöqtəsində, Şimal və Cənub, Qərb və Şərq dəhlizlərinin qovuşuğunda yerləşən Azərbaycan Avropa ilə Asiya arasında körpü rolunu oynayır. Cənub Qaz Dəhlizinin ən axıcı qollarından biri olan Trans-Adriatik (TAP) qaz boru kəmərində də İtaliya təchizatçı kimi yer almaqdadır. Hazırda iki ölkə enerji-nəqliyyat dəhlizlərində yeni gündəliyə uyğun olaraq tərəfdaşlıq imkanlarını daha da artırmaqda qərarlıdır. Mikayıl Cabbarovla İtaliyanın Azərbaycandakı səfiri Luka Di Canfrançesko arasında görüş zamanı Orta Dəhlizin inkişafı və bu çərçivədə əməkdaşlığın perspektivləri müzakirə edilib ki, bu da müasir nəqliyyat arteriyalarında iki ölkənin iqtisadi niyyətlərini ifadə edir.

**E.CƏFƏRLİ**

# Şəhid ailələrinin bütün problemləri öz həllini tapır

Məlum olduğu kimi Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Qanuna dəyişikliklər təsdiq edilib. Yeni dəyişikliklərə əsasən, şəhid ailələri üçün yeni güzəşt hüququ qüvvəyə minib. Belə ki, şəhidin mənzil hüququna malik ailə üzvü dünyasını dəyişərsə, şəhid ailəsi statusu olmayan ailə üzvləri də mənzil növbəsinə yazıla biləcək. Əvvəlki qaydalara görə, şəhidin həyat yoldaşı dünyasını dəyişdiyi halda şəhidin övladları status yaşından keçirdisə, mənzil növbəsinə iddialı ola bilmirdilər. Yeni dəyişikliklər isə şəhidin statusu olmayan ailə üzvlərinin də mənzil ilə təminat hüququndan istifadə etməsinə imkan verəcək.

Qanuna edilmiş dəyişikliklər şəhid ailələrinin sosial müdafiəsinin daha da gücləndirilməsi və mənzil təminatlarının yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir və son illərdə dövlətin yürütdüyü sosial siyasətin uğurlarının təzahürüdür. Hazırda Azərbaycanda 15 mindən çox şəhid ailəsi üzvü və Qarabağ qazisi indiyədək mənzillə təmin olunub və bu qərardan sonra mənzil təminatı üzrə tədbirlər daha da genişlənəcək. Bu kateqoriyadan olan bütün vətəndaşlarımızın 2025-ci ilin sonunadək mənzillə təmin olunması öz həllini tapacaq.

Bu addım şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, rifah halının daim yaxşılaşdırılması ilə bağlı ölkə Prezidentinin bilavasitə rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mühüm təzahürlərindən biri hesab oluna bilər. Şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, rifah halının daim yaxşılaşdırılması ölkə başçısının bilavasitə rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Çoxşaxəli sosial müdafiə tədbirləri nəticəsində hazırda 20 adda təminat və sosial qayğı ilə əhatə olunmuş şəhid ailələrinin mənzil problemi də dövlətin xüsusi nəzarətindədir.



Qeyd edək ki, ötən ay Milli Məclis tərəfindən təsdiq edilən “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” qanuna dəyişiklik layihəsində də bu kateqoriyadan olan insanların mənzil-yaşayış sahəsi ilə bağlı güzəştlər öz əksini tapıb. Əvvəlki qanunvericilik sənədində yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması və yaxud saxlanılmaması ilə bağlı müddəa nəzərdə tutulmadığından yaşayış sahəsinin uçotu ilə bağlı bir sıra uyğunsuzluqlara yol açırdı. Qanun layihəsinə dəyişikliklərdən sonra bu uyğunsuzluq da aradan qaldırıldı və həmin kateqoriyaya aid olan subyektlərin mənzil şəraitinin yaxşılaşdırılması və yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınma öz həllini tapdı.

Dövlətimizin ərazi bütövlüyümüzün təmin olunmasında canını fəda etmiş şəhidlərimizin ailələrinə əlavə güzəştlərin edilməsi üçün qanunvericilikdə bir neçə dəfə dəyişikliklər olunub. Ötən illərdə “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” qanuna bir neçə dəfə dəyişikliklər edilib. Həmin dəyişikliklərə əsasən, ailəsinin üzvü hesab edilmə halları artırılıb. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində təhsil alanlar da həmin təhsil müəssisələrini və elmi təşkilatların magistratura səviyyəsini bitirənədək şəhid ailəsinin üzvləri hesab ediliblər.

Həmçinin, ötən illərdə qanunda edilmiş digər dəyişikliyə əsasən, şəhid ailəsi statusunu almış ailənin üzvlərinə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada təminatların verilməsi halları artırılıb. Belə ki, dəyişikliyə əsasən, yalnız orta peşə-ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alanlar deyil, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda ödənişli formada təhsil alanlar da təhsil haqqını ödəməkdən azad olunublar.

44 günlük Vətən müharibəsində əldə edilmiş Zəfərdən sonra bu istiqamətdə daha əhatəli sosial əhəmiyyətli addımlar atılıb, büdcənin imkanları artdıqca bu sosial kateqoriyaya aid şəxslərin müavinətlərinin artımı həyata keçirilib. “Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında” fərmanda da dəyişiklik edilərək şəhid ailəsi üçün Azərbaycan Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 500 manatdan 600 manata qaldırılıb. Bundan başqa, şəhid ailələrinə Prezident təqaüdü, şəhidin pensiya hüququ olduqda ailə üzvlərinə ailə başçısını itirməyə görə pensiya, pensiya hüququ olmadıqda isə ailə başçısını itirməyə görə hər bir ailə üzvünə müavinət müəyyən edilib.

Şəhid və şəhid ailəsi statusu almış şəxslərin vahid informasiya bazasını yaratmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın elektron informasiya sistemində şəhid və şəhid ailəsi statusu almış şəxslərin elektron reyestri yaradılıb ki, bu da həmin şəxslər barədə vahid informasiya bazasının təmin edilməsinə və daha çevik və operativ sosial xidmətlər göstərməyə imkan verməkdədir.

Həmçinin, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” və qanunlarda, Əmək və Vergi Məcəllələrinə dəyişikliklər edilməsi nəticəsində sosial güzəştlər tətbiq olunub. Belə ki, 2023-cü il üçün Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərdən biri də şəhid statusu verilmiş şəxsin valideynlərinin, dul arvadlarının və ərlərinin və övladlarının vergi tutulmalı olan aylıq gəlirləri, əməkhaqqı gəlirləri ilə bağlı 800 manat məbləğində vergi güzəştinin verilməsidir.

Beləliklə, çoxşaxəli sosial müdafiə tədbirləri nəticəsində qayğı ilə əhatə olunmuş şəhid ailələrinin davamlı olaraq bütün problemləri, o cümlədən mənzil qayğıları dövlətin xüsusi nəzarətində saxlanılmaqla ardıcıl qaydada öz həllini tapır.

***ELBRUS***

# İslam dünyasının nəbzi Şuşada döyünür

Azərbaycan xalqının qəlbində xüsusi yeri olan, uca dağlar qoynunda qərar tutaraq ətrafa hakim kəsilən əziz Şuşamız yenidən qonaq-qarşılır. Burada Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə “İslam dünyasında qadınlar: ənənələr və çağırışlar” mövzusunda konfrans keçirilir. Nazirlər Kabinetinin sərəncamı ilə təsdiqlənən Şuşa şəhərinin 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı “Tədbirlər Planı” çərçivəsində təşkil olunan tədbirə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, VI çağırış Milli Məclisin deputatı, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Mərakeş Krallığının həmrəylik, sosial inteqrasiya və ailə naziri xanım Aavatif Hayar, ictimaiyyət nümayəndələri, media təmsilçiləri və müxtəlif dövlət qurumlarının əməkdaşları qatılıblar.

**Bütün İslam dünyasının rəmzlərindən biri**

Şuşanın təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub. 1992-ci il 8 may tarixində işğal altına düşənədək Şuşa özünün bəxtəvər günlərini yaşayırdı - şəhərdə hər cəhətdən qaynar mühit var idi, burada Azərbaycan və keçmiş ittifaq miqyasında müxtəlif tədbirlər, poeziya günləri, festivallar keçirilirdi.

Qarabağ müharibəsi, işğal bütün bunlara son qoydu. İşğalın davam etdiyi üç onillik ərzində mənfur düşmən Şuşamızın sinəsinə yaralar vurub, burada ağlasığmaz vandalizm əməlləri törədib, şəhəri erməniləşdirməyə çalışıb. Lakin bütün bunlar heç bir nəticə verməyib. “İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə növbəti dəfə Şuşaya səfəri çərçivəsində keçirilən Vaqif Poeziya Günlərinin rəsmi açılış mərasimində etdiyi çıxışında deyib. Şuşanın tariximizdə, milli mədəniyyətimizdə əvəzolunmaz yerini dəyərləndirən dövlətimizin başçısı vurğulayıb: “Şuşa Azərbaycan mədəniyyətinin ocağıdır. Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Şuşa Qarabağın tacıdır”.

Azərbaycan xalqı onilliklər ərzində doğmalarının yolunu gözləyən Şuşaya qəhrəman xalq kimi qayıtdı. 44 günlük Vətən müharibəsində Silahlı Qüvvələrimiz 300-dən çox şəhər və kəndi bilavasitə döyüş meydanında işğaldan azad etdi. 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi isə ayrıca bir qəhrəmanlıq dastanıdır. Şuşa əməliyyatı zamanı düşmən Ordumuzu başqa istiqamətdən - şəhərə əsas giriş tərəfdən gözləyirdi. Lakin doğma şəhərimizin geri qaytarılması üçün xüsusi əməliyyat hazırlanmışdı. Əsgər və zabitlərimiz erməni hərbi birləşmələrinin istehkamlar qurduğu tərəfdən deyil, qayalara, yamaclara dırmaşaraq şəhərə daxil oldular və düşməni tam məğlubiyyətə uğratdılar. Ertəsi gün Azərbaycanın Silahlı Qüvvələri daha 70-dən çox yaşayış məntəqəsini, bir sıra strateji əhəmiyyətli yüksəklikləri işğaldan azad etdi. Artıq aydın göründü ki, işğalçı Ermənistanın hərbi resursları tamam tükənib və müharibəni davam etdirmək iqtidarında deyil. Beləliklə, döyüş meydanında sarsıdıcı məğlubiyyətlə üzləşən düşmən noyabrın 10-da onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalamaq məcburiyyətində qaldı və Azərbaycan ərazi bütövlüyünü hərbi- siyasi yolla təmin etdi.

Şuşa Azərbaycan xalqı üçün son dərəcə əziz bir məkan olduğu kimi, bütün İslam dünyası üçün də həm mədəniyyət şəhəri, həm də qəhrəmanlıq məskəni kimi böyük rəmzi məna daşıyan bir şəhərdir. Burada tarix boyunca İslam mədəniyyətinə aid çoxsaylı abidələr yaradılıb. Bu mənada Şuşanın 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı seçilməsi təsadüfi deyil. Bu əlamətdar hadisə isə 2023-cü il 25 sentyabr tarixində Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında baş verib. Həmin konfransda ICESCO-nun İslam dünyasının mədəniyyət paytaxtı proqramına Azərbaycanın mədəniyyət naziri Adil Kərimli Şuşanın 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtına namizədliyini təqdim edib. Konfrans iştirakçılarının yekdil rəyi ilə Şuşa 2024-cü il üçün İslam dünyasının paytaxtı elan olunub.





Qeyd edək ki, Şuşanın “İslam dünyasının mədəniyyət paytaxtı” adına namizədliyinin irəli sürülməsi məqsədilə ICESCO-nun müvafiq missiyası burada olub. Şəhərdə aparılan quruculuq işləri missiya tərəfindən yüksək qiymətləndirilib. Bundan əlavə, Birinci vitse-prezident, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın Şuşanın namizədliyinin irəli sürülməsi prosesinə yaxından dəstək göstərməsi səsvermənin ölkəmizin xeyrinə nəticələnməsində xüsusi rol oynayıb.

**Zəngin Şuşa ili**

Azərbaycan dövləti və cəmiyyəti İslam dünyasının bəhs olunan qərarını böyük məsuliyyət kimi qəbul edib. Prezident İlham Əliyev 21 noyabr 2023-cü il tarixində “Şuşa şəhərinin 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər haqqında” sərəncam imzalayıb. Sənəddə Nazirlər Kabinetinə Şuşa şəhərinin 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

İl ərzində İslam dünyasının Mədəniyyət Forumunun təşkil edilməsi və bu çərçivədə Şuşada İslam Əməkdaşlığı Təşkilatının mədəni irsin mühafizəsinə həsr olunmuş beynəlxalq konfransının, “İslam dünyasının itirilməkdə olan qeyri-maddi mədəni irs nümunələri” mövzusunda dəyirmi masa və sərginin, digər təqdimatların keçirilməsi gözlənilir.

İslam ölkələrində “Şuşa günləri”nin keçirilməsi və tədbirdə folklor incəsənət qruplarının, Qarabağ xalçalarının, foto və rəsm əsərlərinin nümayişi, kitab təqdimatlarının keçirilməsi, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) qərargahında (Mərakeşin Rabat şəhəri - red.) Şuşaya həsr edilmiş birgə elmi və mədəni tədbirlərin təşkili də nəzərdə tutulub.

İslam ölkələrinin mədəniyyət paytaxtlarının “Şuşa şəbəkəsi”nin yaradılması və ilk görüşünün keçirilməsi, İslam dünyasında turizmin inkişafı mövzusunda beynəlxalq konfransın və “İslam ölkələrinin ortaq süfrəsi” kulinariya festivalının təşkili, ICESCO-nun “A-Hub Akselerasiya Proqramı”nın (2023-cü il üzrə) böyük finalının Azərbaycanda keçirilməsi də gözlənilən tədbirlər sırasındadır.

**Azərbaycana və onun Liderinə göstərilən böyük hörmət**

Birinci dəfə deyil ki, Azərbaycan şəhəri İslam dünyasının mədəniyyət paytaxtı adını qazanır. 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhəri İslam dünyasının mədəniyyət paytaxtı elan edilib. Cari ildə isə əziz Şuşamız bu şərəfli adı daşıyır. Müxtəlif illərdə Azərbaycan şəhərlərinin İslam dünyasının mədəniyyət paytaxtları seçilməsi isə heç də təsadüfi deyil. Prezident İlham Əliyevin bildirdiyi kimi, biz bunu İslam dünyasının Azərbaycana növbəti dəstəyinin, hörmətinin əlaməti kimi qəbul edirik.

Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində İslam dini xüsusi yer tutur. İslam dini Azərbaycan xalqının həyatına VII əsrdən başlayaraq daxil olub və həmin dövrdən etibarən milli-mənəvi dəyərlərimizin formalaşmasında və zənginləşməsində mühüm rol oynayıb. Ölkə ərazisində mövcud olan Əshabi-Kəhf ziyarətgahı, Qafqazın ən qədim məscidi - 743-cü ildə əsası qoyulmuş Şamaxı Cümə məscidi, Bibiheybət məscid-ziyarətgah kompleksi, Gəncə “İmamzadə” kompleksi və digər çoxsaylı abidələr Azərbaycanın İslam dini-mədəni dəyərlər sisteminə əhəmiyyətli töhfəsi kimi qiymətləndirilə bilər.

Eyni zamanda, müstəqil Azərbaycan böyük İslam coğrafiyasında yerləşən ölkələrlə və bu ölkələrin birləşdiyi beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. Ölkəmizin sədrliyini uğurla yekunlaşdırdığı Qoşulmama Hərəkatının tərkibində çoxlu sayda İslam dövləti var. Respublikamız sədrliyi dönəmində qurumun funksionallığının artması sanballı töhfələr verdi. Azərbaycanın davamlı səyləri sayəsində beynəlxalq səviyyədə hərəkatın nüfuzu əhəmiyyətli dərəcədə yüksəldi. Ölkəmiz həmçinin dünyada İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində fəal iş aparır. 2017-ci ilin ölkəmizdə “İslam Həmrəyliyi İli” elan olunması Azərbaycanın müsəlman aləmində həmrəyliyin möhkəmlənməsinə göstərdiyi siyasi iradənin ifadəsidir. Ölkəmiz IV İslam Həmrəyliyi Oyunlarına böyük uğurla ev sahibliyi edib. Cənubi Qafqaz coğrafiyasının ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu da dünyada İslam mədəniyyətinin qorunması və təbliği istiqamətində fəal iş aparır. Fondun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2012-ci ildə Parisdəki məşhur Luvr muzeyində İslam mədəniyyəti bölməsinin açılması buna yaxşı nümunədir. Onu da vurğulamaq yerinə düşər ki, Heydər Əliyev Fondu işğal dövründə ermənilərin Qarabağda, o cümlədən də Şuşada dağıtdıqları, təhqirlərə məruz qoyduqları tarixi-dini abidələrin bərpasını öz üzərinə götürüb. Həmin abidələrin böyük əksəriyyəti İslam dininə aiddir.

Öz növbəsində İslam dünyası da Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi ardıcıl siyasəti yüksək dəyərləndirir. Bu gün geniş İslam coğrafiyasında Azərbaycana və onun Liderinə böyük hörmət bəslənilir. Şuşanın 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı seçilməsi bunun növbəti əyani təsdiqidir.

***Mübariz ABDULLAYEV***

# Azərbaycan ümid yeridir

Azərbaycanda Fransanın Afrikada və dənizaşırı ərazilərdə həyata keçirdiyi kolonializm siyasətinə qarşı mübarizə mövzusunda daha bir beynəlxalq tədbir baş tutub. Söhbət Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adaları qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə keçirilən birinci qurultaydan gedir. Qurultayın keçirilməsi ideyası Fransanın dənizaşırı ərazilərinin müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatlarına məxsusdur. Niderland koloniyaları olan Bonayre və San-Martin adalarından 3 təşkilat qurultayın işində fəxri qonaq qismində iştirak edib.

Paytaxtımızın ev sahibliyi etdiyi beynəlxalq tədbirdə Fransanın ən ağır şərtlər əsasında həyata keçirdiyi müstəmləkəçilik siyasəti kəskin tənqid olunub . Qurultay iştirakçıları belə bir yekdil mövqe ortaya qoyublar: Müstəmləkəçilik keçmişin qalığıdır və artıq ona birdəfəlik son qoyulmasının zamanı çatıb. Azad yaşamaq, sərvətlərinin və talelərinin sahibi olmaq hər bir ölkənin və xalqın müstəsna hüququdur.

**Niyə məhz Azərbaycan?**

Sual yaranır: Bəhs olunan formatda birinci qurultayın keçirilməsi üçün nə üçün məhz Azərbaycan paytaxtı Bakı seçilib? Sualın cavabı olaraq bildirək ki, bu, heç də təsadüfi deyil. Məlumdur ki, bu gün Fransa dünyada müstəmləkəçilk və sümürmə siyasətindən əl çəkməyən azsaylı dövlətlərdən biridir. Bu ölkənin tarixində müstəmləkəçilik xüsusi yer tutur. Fransanın müstəmləkəçilik siyasətinin təxminən 500 illik tarixi var. Bu ölkə istilalar sayəsində Afrikanın qərbində və şimalında 20-dən çox ölkəni öz təsir dairəsinə qatmağa nail olub. Afrikanın ərazilərinin təxminən 35 faizi 300 il ərzində tamamilə Fransanın nəzarətində qalıb. Təbii ki, zaman ötdükcə Fransa müstəmləkəçilik siyasətində müəyyən forma dəyişiklikləri etmək məcburiyyətində qalıb. Ancaq zaman və forma dəyişsə də, ənənəvi müstəmləkəçilik neokolonializmlə əvəzlənsə də, üzqarası siyasətin mahiyyəti dəyişməyib. Fransa Seneqal, Niger, Kamerun və Mavritaniya kimi bir çox Afrika ölkələrində, xüsusilə də Əlcəzair və Ruandada daxili qarşıdurma və soyqırımı



üçün məsuliyyət daşıyır.

Təbii ki, Yelisey Sarayı müstəmləkə ərazilərində törətdiyi çoxsaylı soyqırımı cinayətlərinin məsuliyyətini yaxşı anlayır. Buna görə də rəsmi Paris müstəmləkə mövzusuna bir növ tabu qoyub və informasiya blokadası yaradıb. Müstəmləkə ölkələrində azadlıq mübarizəsinə qalxan yerli xalqlara qarşı amansız təqiblər aparılır, liderlər ya şərlənərək həbsxanalara atılır, ya da fiziki cəhətdən məhv edilərək sıradan çıxarılır. Lakin bütün bunlar barədə beynəlxalq ictimaiyyət bir qayda olaraq xəbərsiz qalırdı.

Qapalı dairədə Fransa tərəfindən insanlıq faciələrinin törədilməsi, bu cinayətlərin gizlədilməsi, xalqların azadlıq mübarizəsinin qan gölündə boğulması dözülməzdir. Dünya buna biganə qalmamalıdır. Öz növbəsində məsuliyyətli dövlət olan və həmişə ədalət mövqeyindən çıxış edən Azərbaycan Fransanın XXI əsrdə üzqarası siyasətini davam etdirməsinə qarşı çıxır. Beynəlxalq ictimaiyyət təkcə son vaxtlarda Yeni Kaledoniyada, Fransız Polineziyasında və digər ünvanlarda aborigen xalqların başladıqları azadlıq mübarizəsi barədə məhz Azərbaycan üzərindən məlumat almaq imkanı qazandı. Respublikamızın ardıcıl səyləri sayəsində artıq kolonializmə qarşı mübarizə çağırışları qlobal gündəlikdə yer alır. Yeri gəlmişkən, Bakının ev sahibliyi etdiyi qurultayda Yeni Kaledoniyada kanak xalqının Yelisey Sarayının bədnam konstitusiya "islahatları"na qarşı başladığı mübarizəyə yenidən diqqət çəkilib. Qurultayda açılış nitqi ilə çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, Yeni Kaledoniyada baş verən son iğtişaşlar zamanı, Fransa polisi tərəfindən müstəqillik hərəkatlarının üzvləri qanunsuz həbs olunublar. Onlarla terrorçu kimi davranılıb və gizli şəkildə Parisə aparılaraq müxtəlif işgəncələrə məruz qalıblar. Onlar arasında azyaşlı uşaqları olan qadınlar da var. Bakı Təşəbbüs Qrupu siyasi məhbusların ailələrinə və onları müdafiə edən vəkillərə yardım göstərəcəyini bəyan edir.

Bütün bu kimi faktlar Fransanın müstəmləkə ərazilərinin təmsilçilərinin birinci qurultayın keçirilməsi üçün niyə məhz Bakını seçdiklərinin səbəblərinə aydınlıq gətirir. Açıq şəkildə görünür ki, onlar haqq-ədalət mövqeyindən çıxış edən Azərbaycana inanır və ölkəmizə ümid yeri kimi baxırlar.

**Bakı Təşəbbüs Qrupunun fəallığı**

Fransanın müstəmləkəçilik siyasətinin qanlı izlərinin ifşasında Azərbaycanın təklifləri əsasında yaranan Bakı Təşəbbüs Qrupunun aktiv fəaliyyətinin önəmini xüsusi qeyd edə bilərik. 2023-cü ildən fəaliyyətə başlayan Bakı Təşəbbüs Qrupu artıq beynəlxalq platformaya çevrilib. Təsisat müstəmləkəçilik və neokolonializmlə mübarizənin ardıcıl şəkildə dəstəklənməsi çərçivəsində Cenevrə və İstanbulu da əhatə etməklə Bakıdan Nyu-Yorka qədər çoxlu sayda beynəlxalq konfrans təşkil edib. Son zamanlar Bakı Təşəbbüs Qrupunun fəaliyyəti hökumətlərarası səviyyədə vurğulanıb. Bütün beynəlxalq tədbirlərdə Polineziya, Korsika, Melaneziya, Karib dənizi və Antil adalarında məşğulluq, mənzil təminatı sahələrində ayrı-seçkilik halları, təbii sərvətlərin istismarı barədə ətraflı məlumat verilib, Fransa hökumətinin himayəsi altında təşkil edilən kütləvi immiqrasiya faktları diqqətə çatdırılıb. "Müasir dövrdə bu cür genişmiqyaslı tədbirlər nadir hallarda baş tutur. Bakı Təşəbbüs Qrupu olaraq biz bu Qurultayı təşkil etməklə müstəqillik hərəkatlarının təşəbbüslərinə və istəklərinə dəstək vermək əyani məqsəd qoymuşuq", - deyə Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib.

A.Abbasov vurğulayıb ki, paytaxt Bakı artıq müstəmləkəçiliklə mübarizə fəaliyyətlərinin və dekolonizasiya proseslərinin mərkəzinə çevrilib. Fikirlərinə davam edən icraçı director deyib: "Bu qurultay da həmin müzakirələrin beynəlxalq platformasına çevriləcək. Fransa polisi tərəfindən həbs olunmuş Yeni Kaledoniyadakı müstəqillik tərəfdarlarına, siyasi məhbuslara və onları müdafiə edən vəkillərə maddi yardım ayırmağı nəzərdə tutmuşuq. Digər ölkələrə də bu kimi yardımlar göstəriləcək. Təhsil və ailələrə gəlincə, Azərbaycan ali təhsil müəssisələrində bu regionlardan olan gənclərə xüsusi təqaüdlər ayırmaq niyyətindədir", - deyə o əlavə edib.

İcraçı direktor qeyd edib ki, Azərbaycanda keçiriləcək COP29-da müstəmləkə dövlətlərindən olan nümayəndələrin iştirakı nəzərdə tutulub. Onlara dəvətlər göndərilib və ilkin müzakirələr başlanıb. Fransanın müstəmləkəçilik siyasətindən zərər çəkən ərazilərdə ciddi ətraf mühit problemləri var. COP29 çərçivəsində Bakı Təşəbbüs Qrupu tərəfindən keçiriləcək tədbirdə bu məsələlər də müzakirə olunacaq.

**Həll yolu tapılmalıdır**

Bakının ev sahibliyi etdiyi tədbirdə Fransa müstəmləkəçiliyinə qarşı mübarizənin genişləndirilməsinin zəruriliyinə qətiyyətli çağırışlar edilib. "Azərbaycan hökumətinə və bizim burada olmağımıza şərait yaradan bütün insanlara təşəkkür edirik. Fransanın koloniyaları ilə bağlı bu qurultayda biz çətin yoldan uzaqlaşmaq üçün həll yolu tapmalıyıq". Bu sözləri Yeni Kaledoniyanın xarici işlər naziri Mikael Forrest Qurultayda çıxışı zamanı deyib. "Biz platformalarımızı möhkəmləndirməliyik, müzakirələr aparmalıyıq. Siyasi fəaliyyətimizi elə qurmalıyıq ki, çağırışlara cavab tapa bilək. Bakı Təşəbbüs Qrupu bizə imkan yaradıb, bunu dəyərləndirməliyik. Bir araya gələrək müxtəlif gələcək platformalar barədə düşünməliyik. Yeni dünya düzənində öz yerimizi tapmalıyıq", - deyə o əlavə edib.

Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin Baş katibi Jan-Jakob Bisep BMT-nın çətiri altında Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə ilk dəfə Bakıda belə bir tədbir keçirilməsinə şərait yaradıldığını minnətdarlıq hissi ilə qeyd edib. O, bu qurultayın tarixi xarakter daşıdığını qeyd edərək bildirib: "Biz kolonializmə qarşı birlikdə mübarizə apara bilərik. Bizim məqsədimiz dünya ictimaiyyətinin diqqətini bu məsələyə yönəltməkdir. Biz əlimizdən gələni edəcəyik ki, həmrəyliyimizi möhkəmləndirək, dünyada daha çox görünə bilək. Fransa koloniyalarına qarşı cinayətlər törədən dövlətdir. Məqsədimiz dünyanı Fransaya təsir göstərmək üçün səfərbər etməkdir".

Qurultaydakı çıxışında Yeni Kaledoniyanın parlament üzvü Maria Saliqa da Fransanın müstəmləkəçilik siyasətinə kəskin etirazlarını bildirib. Onun sözlərinə görə, Fransa dövlətinin hərəkətləri qəbuledilməzdir və beynəlxalq səviyyədə müzakirə olunmalıdır. Makron Fransası bütün demokratiya qaydalarına üz çevirib. Maria Saliqa qeyd edib ki, Fransız Polineziyasında bu ölkənin atom, nüvə testlərini xatırlayırıq. Həmin ərazilərdəki xalqlar bundan uzun müddət əziyyət çəkdilər.

"Fransa terrorçu dövlətdir. Azad etmək istəmədiyi ərazilərdə hökmranlığını sürdürür", - deyə Yeni Kaledoniyadan olan parlamentari vurğulayıb.

*M.ABDULLAYEV*

# Asiya Bankı Azərbaycanda "yaşıl enerji"layihələrini maliyyələşdirəcək

Asiya İnkişaf Bankı (AİB) Qafqaz və Mərkəzi Asiya üçün artım proqnozunu 2024-cü ildə 4,3 fazidən 4,5 faizə, 2025-ci ildə isə 5 faizdən 5,1 faizə yüksəldib. Bankın yeni açıqlanan "Asiyanın inkişaf perspektivləri" hesabatında Azərbaycanla bağlı makroiqtisadi proqnozlar da ümidvericidir. Sənəddə qeyd edilir ki, Azərbaycan iqtisadiyyatı 2024-cü ilin ötən aylarında 4,3 faizdən çox böyüyüb ki, iqtisadi artımda dövlət xərcləri ilə dəstəklənən nəqliyyat və tikinti sahələrinin davamlı inkişafı mühüm rol oynayıb. Bu xərc dinamikasının qarşıdakı aylarda da davam edəcəyi gözlənilir ki, nəticədə ölkəmizin artım tempi 2024-cü ilin sonunda daha da yüksələcək. Həmçinin, Azərbaycan iqtisadiyya-




tına il ərzində yerli və xarici investisiyalarla maliyyələşdirilən xidmət və digər sahələrdə istehsalın artması da gözlənilir ki, bu da dayanıqlı inkişaf üçün zəmin deməkdir.

AİB hesab edir ki, Azərbaycanda yeni investisiyayönümlü sahə kimi ön plana keçən "yaşıl iqtisadiyyat"a yönələn sərmayələrin axını bu istiqamətdə növbəti illərdə iqtisadi stimul yaradacaq. Bank özü də bu sahədə maliyyələşmədə maraqlı donor kimi Azərbaycanın etibarlı maliyyə təchizatçısı olmaq niyyətindədir.

Qeyd edək ki, Asiya Bankı 25 ilə yaxındır ki, ölkəmizdə infrastruktur, nəqliyyat, su təchizatı və enerji, maliyyə, təhsil və səhiyyə sektorlarında müxtəlif layihələrin maliyyələşdirilməsində ən yaxın tərəfdaş kimi təmsil olunmaqdadır. Bank Azərbaycan hökumətinin prioritetləri əsasında ölkəmizdə həyata keçirilən iqtisadi islahatlarda, infrastruktur layihələrinin maliyyələşdirilməsində yaxından iştirak edib. 2024-cü il 1 aprel tarixinə Asiya İnkişaf Bankı ilə Azərbaycan Respublikası arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində 4,2 milyard dollar həcmində maliyyələşdirmə proqramları həyata keçirilib. Bundan başqa Azərbaycan hökumətinin cəlb etdiyi kreditlər üzrə həyata keçirilən layihə və proqramların məbləği 3,2 milyard dollar, dövlət müəssisələri tərəfindən dövlət zəmanəti ilə təmin edilmiş kreditlər əsasında həyata keçirilən layihə və proqramlar üzrə 930 milyon dollar, bilavasitə özəl sektorun maliyyələşdirilməsi üzrə 62 milyon dollar ayrılıb, həmçinin AİB tərəfindən ölkəmizdə həyata keçirilən layihələrin icrasına dəstək göstərilməsi məqsədilə qrant və texniki yardımlar göstərilib. Həmin əməkdaşlıq proqramları nəqliyyat, dövlət maliyyəsinin idarə edilməsi, enerji, su, şəhər infrastrukturu və digər sektorları əhatə edib.

Asiya İnkişaf Bankı Azərbaycanın regional enerji layihələrinin maliyyələşdirilməsində də donor kimi fəal rol oynayıb, Cənub Qaz Dəhlizi layihəsinə dəstək verən ilk beynəlxalq maliyyə qurumu olub. Avropa İttifaqının enerji təminatında xüsusi rol oynayan bu layihələri də maliyyələşdirməyi öz öhdəsinə götürərək "Şahdəniz" yatağının maliyyələşdirilməsinə 524,5 milyon dollar məbləğində tam şəkildə zəmanət verib. Hazırda yenə də Aİ-nin enerji təminatları üçün nəzərdə tutulan yeni marşrutların və infrastrukturların qurulmasına da tam dəstəyini göstərməyə hazır olduğunu bəyan edir.

Prezident İlham Əliyevin iyunun 27-də Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakava ilə görüşündə də bu məsələyə toxunulub və Azərbaycan təbii qazının nəql layihələrinə Avropa maliyyə institutları tərəfindən maliyyə gecikmələrinin olduğu vaxtda AİB-in birmənalı dəstəyi yüksək qiymətləndirilib. Cənab Asakavanın ölkəmizə səfərinin Azərbaycanla bank arasında sıx əməkdaşlıq əlaqələrinin davam etdirilməsi və yeni səhifənin açılması üçün yaxşı imkanlar yaratdığı vurğulanıb. Qarşıda yeni hədəf və layihələrin icrası dayanır, bu, Azərbaycanın təşəbbüskar olduğu regional layihələrin, o cümlədən Xəzəryanı ölkələrlə və digər region dövlətləri ilə güclü iqtisadi bağlantının yaradılması üçün müasir enerji-nəqliyyat qovşaqlarının maliyyələşdirilməsində AİB-in yenə də əsas maliyyə dayağı olacağına əsaslı zəmin yaradılması deməkdir.

Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair strategiya sənədi qəbul etdiyini xatırladaraq, milli prioritetlərə əsaslanan, iri, ambisiyalı inkişaf proqramlarını və layihələrini özündə əks etdirən həmin Strategiyada qarşıya qoyulan vəzifələrin və çağırışların yerinə yetirilməsində uzunmüddətli, səriştəli və sınanmış iqtisadi-maliyyə tərəfdaşı kimi AİB-nin Azərbaycan hökumətinə maliyyə, texniki və məsləhət dəstəyini davam etdirəcəyi nəzərdə tutulub.

Azərbaycan hökuməti ilə AİB-in qarşıdakı illərdə əməkdaşlıq gündəliyində "yaşıl enerji" proqramı əsas yer tutur və 2024-2026-cı illər ərzində AİB-lə Azərbaycan Respublikası arasında əməkdaşlıq əsasən bərpaolunan enerji və "yaşıl nəqliyyat" sahələrini əhatə edəcəkdir. Bu istiqamətdə bank tərəfindən regional nəqliyyat sistemləri vasitəsilə regional əməkdaşlığın gücləndirilməsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizi çərçivəsində dəmir yolu sektorunda nəzərdə tutulan işlərin tamamlanması və Bakı şəhərində mobilliyin artırılmasında ölkəmizə dəstək veriləcək-



dir. Əməkdaşlıq çərçivəsində özəl sektorun iştirakçıları ilə birgə 2024-2025-ci illər ərzində yeni bərpaolunan enerji layihələrinin birgə maliyyələşdirilməsi də nəzərdə tutulur. AİB-in, xüsusilə də işğaldan azad olunmuş ərazilərdə hidroelektrik stansiyaların tikilməsinə sərmayə qoyması gündəlikdə durur.

Asiya Bankının prezidenti Masatsuqu Asakava bildirib ki, AİB Asiya və Sakit Okean regionu üçün iqlimi dəstəkləyən bank kimi xidmət göstərməyə tam sadiqdir və bank 2030-cu ilə qədər 100 milyard dollar həcmində iqlim maliyyələşdirməsini təmin etməyi hədəfləyir: Azərbaycan hökumətinin 2030-cu ilə qədər bərpaolunan enerjinin payını 30 faizə çatdırmaq məqsədini nəzərdə tutan təmiz enerjidə keçid istiqamətində inamlı səylərini dəyərləndirən bank bu istiqamətdə ölkəmizi dəstəkləməyə davam edəcəkdir. AİB prezidentinin sözlərinə görə, Azərbaycan həmçinin dayanıqlı şəhər nəqliyyatı üzrə e-mobillik, dəmir yollarının rəqəmsallaşdırılması, sürətli dəmir yolu, metro sisteminin təkmilləşdirilməsi, dəniz suyunun duzsuzlaşdırılması və təhlükəsiz su təchizatının təmin edilməsi kimi bir sıra innovativ təşəbbüslərə diqqət yetirir. Bank yaşıl enerji, su resursları, bağlantıların yaradılması və iqlimə davamlı infrastrukturun prioritetləşdirilməsi üçün öz dəstəyini təklif edir.

*ELBRUS CƏFƏRLİ*

# Parlament seçkiləri beynəlxalq təşkilatların diqqətində

## MDB Parlamentlərarası Assambleyası ölkəmizdə parlament seçkilərini izləmək üçün müşahidəçilər qrupu formalaşdırır

Ölkəmizdə keçiriləcək parlament seçkiləri ictimai-siyasi gündəmin əsas mövzularından biridir. Seçki günü yaxınlaşdıqca siyasi fəallıq da əhəmiyyətli dərəcədə artır. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev iyunun 28-də VI çağırış Milli Məclisin buraxılması və növbədənkənar parlament seçkilərinin təyin edilməsi haqqında sərəncam imzalayıb. Dövlət başçısının sərəncamına əsasən, seçkilər 2024-cü il sentyabrın 1-də keçiriləcək.

Bir sıra beynəlxalq təşkilatlar artıq sentyabrın 1-də Azərbaycanda keçiriləcək parlament seçkilərini müşahidə edəcəklərini bəyan ediblər. Təbii ki, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan, bütün sahələrdə olduğu kimi, demokratik prinsiplərə sədaqət, seçkilərin azad, şəffaf və ədalətli keçirilməsi istiqamətində siyasi iradə nümayiş etdirib. Ölkəmiz istər seçki qanunvericiliyinin təkmilləşdirilməsi, istərsə də prosesin şəffaf və bərabər prinsiplər əsasında inkişafı yolunda əsaslı addımlar atıb. Bu baxımdan, beynəlxalq qurumların qarşıdan gələn parlament seçkilərinə verdiyi önəm anlaşılandır.

Yeri gəlmişkən, sentyabrın 1-də keçiriləcək parlament seçkilərini izləmək üçün artıq bir sıra təşkilatlara dəvət göndərilib. Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımov jurnalistlərin suallarına cavab olaraq bildirib ki, MSK 26 ölkənin seçki qurumuna müşahidəçilik üçün dəvət göndərib. Bundan əlavə, MDB Parlamentlərarası Assambleyası (MDB PA) sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkiləri izləmək üçün müşahidəçilər qrupu formalaşdırır. "Hazırda MDB PA-ya üzv dövlətlərin parlamentlərinin nümayəndələrindən, Assambleyanın rəsmilərindən və MDB PA-nın Demokratiyanın İnkişafının Monitorinqi Beynəlxalq İnstitutunun ekspertlərindən müşahidəçilər qrupu yaradılır", -deyə qurumun mətbuat xidmətindən bildirilib.

Onu da qeyd edək ki, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinə uyğun olaraq seçkilərin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri addımları atır. Belə addımlardan biri də seçki komissiyalarının üzvləri üçün treninqlərin, seminarların keçirilməsidir. Bu baxımdan, aşağı seçki komissiyalarında da keçirilən tədbirlər seçki prosesinin yüksək səviyyədə təşkili baxımından önəmlidir. Mövzu ilə bağlı MSK üzvü Qabil Orucov jurnalistlərə açıqlamasında deyib ki, regional seminarlar aşağı seçki komissiyalarında seçki qanunvericiliyi normalarının düzgün tətbiq edilməsinə töhfə verəcək. O bildirib ki, ölkə Prezidentinin milli fəaliyyət planının təsdiq edilməsi ilə bağlı müvafiq sərəncamına və MSK-nın təqvim planına uyğun olaraq, mövcud seçki prosesində də aşağı seçki komissiyası üzvlərinin maarifləndirilməsi ilə



əlaqədar mühüm tədbirlər həyata keçirilir: "Hazırda regionlar üzrə keçirilən seminar da məhz bu tədbirlərin tərkib hissəsidir. Bu seminarlar aşağı seçki komissiyalarına seçki hüquqpozmaları ilə əlaqədar şikayətlərə baxılması və araşdırılması üçün yaradılmış ekspert qrupunun üzvləri ilə bir çox məsələlərin müzakirəsinə, həmçinin qarşıya çıxacaq hər hansı bir problemin aradan qaldırılmasına hədəflənmiş tədbirdir".

MSK üzvü əlavə edib ki, belə tədbirlər aşağı seçki komissiyalarının seçki qanunvericiliyinin normalarını düzgün tətbiq etmələrinə töhfə verən mühüm tədbirlərdən biridir.

Bir sözlə, seçkiləri yüksək səviyyədə keçirməklə Azərbaycan dövləti demokratik seçkilərin keçirilməsi ilə bağlı beynəlxalq öhdəliklərə riayət etdiyini, eləcə də, seçki prosesində bütün iştirakçıların seçki hüquq və azadlıqlarının təmin olunduğunu bir daha nümayiş etdirəcək. Seçki kampaniyası dövründə həyata keçirilən bütün tədbirlər məhz bu məqsədə xidmət edir.

*Nardar BAYRAMLI*

# “Birləşdik-2024” hərbi təlimi

## Mərkəzi Asiya ölkələrinin və Azərbaycan hərbçilərinin iştirak etdiyi təlim uğurla başa çatıb

Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər bu sahədə həyata keçirilən davamlı islahatların və məqsədyönlü tədbirlərin nəticəsində Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir silahlı qüvvələri sayılır.

Məlum olduğu kimi, Azərbaycan dost və tərəfdaş ölkələrlə davamlı olaraq birgə hərbi təlimlər də keçirir. Buna nümunə kimi Azərbaycan və Türkiyənin birgə hərbi təlimlər keçirməsini xatırlada bilərik. İki qardaş ölkə arasında birgə hərbi təlimlərin keçirilməsi artıq ənənə halını alıb. Bundan əlavə, Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlılarının “Üç qardaş-2021” hərbi təlimləri buna sübutdur. Eləcə də,



Gürcüstanın paytaxtı Tbilisi şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə “Eternity-2021” kompüter dəstəkli komanda-qərargah təlimini də xatırlamaq olar.

Beynəlxalq əməkdaşlıq çərçivəsində daha bir hərbi təlim isə Qazaxıstanda keçirilib. İyulun 8-dən 17-dək Qazaxıstanın qərbində yerləşən Manqistau vilayətində Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın hərbi qüvvələrinin iştirakı ilə regional beynəlxalq təlimlər baş tutub. Qazaxıstanın Müdafiə Nazirliyinin məlumatına görə, təlimdə hərbi kontingentlər silahlı münaqişənin lokallaşdırılması üzrə birgə əməliyyatı hazırlayıb və həyata keçirib. Təlimlərə təxminən 4 min hərbi qulluqçu və 700-dək hərbi texnika cəlb olunub.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın Müdafiə nazirlikləri arasında imzalanmış birgə plana əsasən, Qazaxıstanın “Oymaşa” təlim poliqonu və Xəzər dənizinin akvatoriyasında yerləşən Tokmak burnunda iyulun 11-dən etibarən “Birləşdik - 2024” əməliyyat-taktiki komanda-qərargah təlimi də keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, “Birləşdik-2024” beynəlxalq təlimində ölkəmizi Quru Qoşunlarının komando bölmələrinin bir qrup hərbi qulluqçusu, Hərbi Hava Qüvvələrinin paraşüt-desant və axtarış-xilasetmə qrupu, Su-25 təyyarələri, eləcə də Hərbi Dəniz Qüvvələrinin gözətçi və desant gəmiləri təmsil edib.



Birgə təlimin açılışı mərasimində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan respublikalarının təlimdə iştirak edən hərbi qulluqçularının təntənəli keçidi olub. Mərasimdə çıxış edənlər bu cür təlimlərin keçirilməsinin birgə fəaliyyətlərin planlaşdırılması və qarşılıqlı təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.



İyulun 17-dək keçirilən təlimdə Azərbaycanı təmsil edən hərbçilər tapşırıqları uğurla yerinə yetiriblər. Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov da birgə təlimlə əlaqədar Qazaxıstanda səfərdə olub. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistanın hərbi rəhbərliyi Xəzər dənizinin akvatoriyasının Tokmak burnuna gələrək təlimin sonuncu taktiki epizodunu izləyib. Təlim iştirakçıları Xəzər dənizinin sahilyanı sahəsinin akvatoriyasında qanunsuz silahlı dəstələrin məhv edilməsi üzrə fəaliyyətləri yerinə yetiriblər. “Birləşdik-2024” təlimində qarşıya qoyulan tapşırıqlar müasir döyüş üsulları nəzərə alınmaqla bütün qoşun növləri üzrə təlimə cəlb edilən şəxsi heyət tərəfindən yüksək peşəkarlıq və dəqiqliklə icra edilib.

Ssenariyə uyğun olaraq, Azərbaycan Hərbi Hava Qüvvələrinin paraşüt-desant və axtarış-xilasetmə qrupu qəzaya uğramış döyüş helikopterinin şəxsi heyətinin döyüş sahəsindən təxliyəsini həyata keçirib. Təlimin taktiki epizodu başa çatdıqdan sonra beynəlxalq təlimə cəlb edilən döyüş texnikası və aviasiya vasitələrinin təntənəli keçidi olub.

Daha sonra “Birləşdik-2024” beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təliminin bağlanış mərasimi keçirilib. İştirakçı dövlətlərin hərbi rəhbərləri mərasimdə çıxış edərək ümumilikdə təlimin gedişatını, müasir döyüş texnikası və vasitələrindən təlim iştirakçılarının effektiv istifadəetmə bacarığını və hərbi qulluqçuların peşəkarlığını müsbət qiymətləndiriblər. On beş ölkənin hərbi attaşelik aparatının nümayəndələrinin də iştirak etdiyi təntənəli mərasimdə bir qrup hərbi qulluqçu medal və qiymətli hədiyyələrlə təltif edildikdən sonra şəxsi heyət təntənəli marşla tribuna önündən keçib.

Sonda Azərbaycan Müdafiə Nazirliyinin rəhbərliyi təlimdə ölkəmizi təmsil edən şəxsi heyətlə görüşüb, beynəlxalq təlimdə yüksək peşəkarlıq nümayiş etdirdiklərinə görə onları təbrik edib və gələcək xidmətlərində uğurlar arzulayıb.

***N.BAYRAMLI***

# Yeni Dünya Müharibəsi ehtimalı...

## Qlobal qarşıdurma riskləri get-gedə artır

Ukrayna - Rusiya müharibəsinin arxada qalan iki ildən artıq dövrü hərbi əməliyyatlarla yanaşı, siyasi prosesləri də gərginləşdirdi. Zaman-zaman ortaya çıxan nüvə ritorikası, geniş sanksiyalar paketləri, qütbləşmə təhdidi və bu kimi situasiyalar qlobal qarşıdurma risklərini artırır. Bu isə öz növbəsində qlobal müharibə deməkdir - başqa sözlə, III Dünya





müharibəsi ehtimalı artmaqdadır. Bu məsələ bir çox siyasətçilər, hətta dövlət xadimləri və rəhbərləri tərəfindən müzakirə predmetinə çevrilir. Mütəmadi dəyişən beynəlxalq siyasi kombinasiyalar isə özlüyündə bir reallığı tam şəkildə ortaya qoyur - qlobal təhlükəsizlik və geniş anlamda sülh məsələsi məcburən ikinci plana adladılır. Macarıstanın sülhpərvər mövqeyinin Ai tərəfindən sabotaj edilməsi, Qərbin sülh məsələsində baryer yartmaq üçün ard-arda etdiyi cəhdlər, hətta qlobal qarşıdurmanın sərhədlərinin genişləndirilməsi uğrunda aparılan fəaliyyət bunu deməyə əsas verir...



### Verilən qərarlar sülhü təşfiq etmir...

Ötən əsrdə yaşanan iki dünya müharibəsinin acı nəticələri hələ də həm yaddaşlardan, həm də dünya xəritəsindən silinməyib. Xüsusilə, II Dünya müharibəsinin dünyaya vurduğu psixoloji-mənəvi zərbələr hələ də xatırlanır. Maraqlıdır ki, bundan daha çox əziyyət çəkən məhz Qərb, konkret desək, Avropa olmuşdu. Müharibənin real nəticələrini bir kənara qoysaq, bütün Avropa məkanı böyük əziyyətlə və böyük zaman kəsiyində yeni özünübərpa prosesi adladı. Dağıdılan şəhərlər, mədəni inkişafın bir neçə onillik gecikməsi, hətta beynəlxalq münasibətlər sisteminin təmərküzləşməsi üçün gərəkən illər bunu təsdiqləyir - nəzərə alsaq ki, qarşı - qarşıya durmuş hərbi güclərin hazırkı arsenalı daha geniş və yeni texniki parametrlərə əsaslanır, budəfəki dağıntıların və qurbanların miqyası haqda indidən faciəvi proqnozlar vermək mümkündür.

Təəssüfləndirici haldır ki, dünya ölkələrinin qlobal qarşıdurmanın bir addımlığında dayanması bütün kriteriyalar üzrə təsdiqlənməkdədir. Son dövrlərdə Qərbin tutduğu mövqeyə radikal ştrixlərin əlavə olunması bunu deməyə əsas verir. Xüsusilə, Ukraynaya yardımın həm maddi, həm təchizat, həm texniki səviyyəsi genişləndikcə, bu amil özünü daha qabarıq hiss etdirməkdədir. Təsadüfi deyil ki, NATO-nun Vaşinqton sammitində verilən qərarlar heç də sülh və təhlükəsizlik parametrləri ilə uyğunluq təşkil etmədi - əksinə, daha yüksək təchizatın Kiyevə təslim edilməsi, üstəlik hava hücumunun genişlənmə imkanlarının tanınması yəqin ki, miqyası da böyüdəcək.

### Dünya müharibəsinin hazırlıq mərhələsi...

Yeri gəlmişkən, Türkiyənin sabiq müdafiə naziri Hulusi Akar da bu məsələyə toxunub. O bildirib ki, bir növ 3-cü Dünya Müharibəsi başlayıb: “Müharibə dediyimiz 3 mərhələdən ibarətdir. Hazırda hazırlıq mərhələsindəyik”.

Dünyanın, xüsusilə Avrasiyanın yeni dönəmdə ən strateji imkanlara malik hərbi-siyasi aktorlarından sayılan rəsmi Ankaranın aparıcı hərbi simalarından birinin ifadə etdiyi bu fikirlər vəziyyətin ciddiliyini sübut edən arqumentdir. Yeni dünya düzəninə siyasi-iqtisadi imkanları ilə müdaxilə etmək imkanlarından geri düşmüş bir sıra ölkələr bu və ya digər şəkildə “qlobal idarəetmə ansamblı”ndan kənarda qalmamaq üçün müharibə yolunu seçir. Məsələn, artıq aylardır ki, Fransa Ukrayna-Rusiya müharibəsi kontekstində özünün hərbi imkanlarından daha böyük iddialarla çıxış etməkdədir. Canlı qüvvə yardmı və ya hərbi hücum avadanlıqları göndərmək kimi avantürist təkliflər Avropanın praqmatik düşüncəli dövlət başçıları tərəfindən bloklanır - hətta, təkzib edilir. Hər kəs düşünür ki, qlobal qarşıdurmada Qərbin Ukraynanı dəstəklədiyi qədər qarşı tərəfin də maraqlarından çıxış edəcək qüvvələr peyda olacaq və bu birmənalı şəkildə istisna edilmir. Uzaq Şərqdən, ta ki Avropanın mərkəzinə qədər siyasi parçalanma daha böyük problemlər yaradacaq. Burada məsələyə yalnız siyasi və ya hərbi müstəvidə yanaşma sərgiləmək doğru deyil - məsələn, iki il öncə Rusiyaya qarşı iqtisadi sanksiyalar tətbiq edən, özü üçün alternativ enerji mənbələri axtarışına çıxan Avropanın yaşadığı çətinliklər göz önündədir. İndiki halda, vəziyyətin daha da dramatikləşməsi daha kritik risklərə yol aça bilər - bundan ən çox əziyyət çəkəcək coğrafiya isə birmənalı şəkildə Qərb, konkret Avropa olacaq.

### Yeni situasiya yarana bilər

Hulusi Akarın “hazırlıq mərhələsindəyik” fikrinin altındakı şifrə həm də bu qlobal qarşıdurmanın qarşısının alınması imkanlarının tükənmədiyini ortaya qoyur. Başqa sözlə, beynəlxalq aləmin məsələ ilə bağlı soyuqanlı davranış sərgiləməsi ehtimalı hələ də öz aktuallığını qorumaqdadır - xüsusilə, Macarıstanın Aİ-yə sədrliyi dönəmi sülh üçün əsl stimul ola bilər. Eyni zamanda, bəzi siyasi analitiklərin proqnozuna görə, dünya müharibəsi və ya qlobal qarşıdurmanın yeni mərhələsi payızdan sonra - dekabr ayında daha real şəkildə təhlil edilə bilər. Məhz həmin dövrdə həm beynəlxaq siyasi situasiyada bəzi oturuşmalar öz həllini tapacaq ki, burada da ən aparıcı ünsür kimi ABŞ-da keçiriləcək prezident seçkiləri diqqətə alınır. Nəzərə almaq gərəkir ki, yeni dönəm prezidentlik üçün seçim marafonuna qatılmış respublikaçıların namizədi Donald Trampın və komandasının Rusiya-Ukrayna müharibəsinə baxışı hazırkı iqtidardan fərqlidir. Ən azından Ukraynaya genişmiqyaslı dəstək məsələsində daha ehtiyatlı davranış tələb edən iddiaçı tərəfin düşüncəsinə görə, ABŞ-ın bu mübarizədə açıq tərəf olması həm dövlət maraqları, həm də maddi mənafe baxımından Vaşinqton üçün sərfəli sayıla bilməz. Onlar daha çox müharibənin inkdiki şərtlər üzrə dondurulmasının və beynəlxalq qanunvericilik müstəvisində masa arxasında müzakirəsinin tərəfdarı kimi çıxış edirlər. Qeyd edək ki, bu təklif və ya mövqe Avropa məkanında da bəzi ölkələr tərəfindən bu və ya digər şəkildə dəstəklənir.

### Nüvə ehtimalı...

Dünya müharibəsi ehtimalı son olaraq göz önünə qarşı tərəflərin təhdidlərinə diqqət yetirməyi də tələb edir. Burada isə nəzərə çarpan ən əsas detal nüvə təhlükəsi məsələsidir. Müharibə başlayan gündən etibarən Qərbin kəskin bəyanatlarına qarşı özünün nüvə imkanlarını “təqdim edən” Kreml kompakt hücuma qarşı müdafiə strategiyasını müəyyənləşdirmiş kimi görünür. Düzdür, rəsmi Moskva bu iddiaları, nüvə silahından istifadə ehtimallarını təkzib etsə də, son müdafiə şansı kimi bu variantı dəyərləndirməyəcəyini də söyləmək olmaz. Nüvə məsələsinin hətta “müzakirə mövzusu”na çevrilməsi belə ondan istifadənin mümkünlüyünü şərtləndirir. Tərəflərdən hansının bu addımı atacağından asılı olmayaraq, nüvə silahından istifadə bütün dünyanı qarşı-qarşıya qoyacaq. Nəticə isə yəqin ki, heç kimin xeyrinə olmayacaq... Nüvə döyüşlərinin qalibi olmur...

***P.İSMAYILOV***

# Azərbaycan-Rumıniya əlaqələri...

## İki ölkənin Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr zamanı müxtəlif məsələlər müzakirə olunub

Buxarest şəhərində Azərbaycanla Rumıniyanın Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib. Azərbaycanın Xarici İşlər Nazirliyindən verilən məlumata görə, nümayəndə heyətinə nazir müavini Fariz Rzayev, Rumıniya nümayəndə heyətinə dövlət katibi Ana Kristina Tinka rəhbərlik edib.



Siyasi məsləhətləşmələr zamanı Azərbaycan və Rumıniya arasında strateji tərəfdaşlığın gücləndirilməsi, siyasi, iqtisadi, energetika, nəqliyyat və humanitar sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən strateji enerji və nəqliyyat layihələri ilə bağlı müzakirələr aparılıb. Cari ilin noyabr ayında Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq və görüləcək işlərlə bağlı fikir mübadiləsi aparılıb və bu mötəbər tədbirin iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradacağı bildirilib.

Görüşdə postmüharibə dövründə bölgədəki vəziyyət, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, Azərbaycan tərəfindən bölgədə davamlı sülhün bərqərar olunması istiqamətində atılan addımlar, işğaldan azad edilmiş ərazilərimizdə mina problemi, orada həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Tərəflər arasında, həmçinin regional və beynəlxalq məsələlər, eləcə də birgə maraq kəsb edən digər mövzular ətrafında fikir mübadiləsi aparılıb. Səfər zamanı F.Rzayev, Rumıniyanın digər rəsmi şəxsləri ilə görüşüb, eləcə də beyin mərkəzlərinin nümayəndələri ilə keçirilən tədbirdə çıxış edib.

Ümumiyyətlə, Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Rumıniya ilə müxtəlif sahələri əhatə edən ikitərəfli əməkdaşlıq Azərbaycanın xarici siyasətinin məntiqi nəticəsidir. Müasir dövrdə Azərbaycan ilə Rumıniya arasında çox sıx əlaqələr mövcuddur. Ruminya Avropa ölkələri arasında Azərbaycanla strateji tərəfdaşlıq quran ilk ölkələrdən biridir. Ölkələrimiz arasında ikitərəfli münasibətlər iqtisadi, ticari, enerji və digər sahələri əhatə edir. Rumıniya respublikamızın müstəqilliyini tanıyan dünyada ikinci (qardaş Türkiyədən sonra), Avropa İttifaqına üzv dövlətlərin arasında isə ilk ölkədir. Ölkələrimiz arasında 19 iyun 1992-ci il tarixində diplomatik əlaqələr qurulub. 1998-ci il noyabrın 3-də Rumıniyanın Azərbaycanda, 2001-ci ilin 19 may tarixində isə Azərbaycan Respublikasının Rumıniyadakı səfirliyi təsis edilib. Həmin illərdən başlayaraq Azərbaycan - Rumıniya münasibətləri davamlı olaraq dostluq və əməkdaşlıq ruhunda inkişaf edib. Hələ 1990-cı illərdə Ulu Öndər Heydər Əliyevin tarixi İpək Yolunun bərpası ilə bağlı təşəbbüsünə qoşulan Rumıniya keçən 30 ildən artıq müddətdə Azərbaycan tərəfindən irəli sürülən bütün beynəlxalq və regional layihələrə dəstək nümayiş etdirib. Bütün bu müddət ərzində dövlət başçıları, dövlət, hökümət və parlament qurumları arasında qarşılıqlı təmaslar intensiv şəkildə davam etdirilib. Hər iki ölkənin prezidentləri, baş nazirləri və parlament sədrləri dəfələrlə qarşılıqlı səfərlər ediblər. Hər iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq əlaqələri xüsusilə faydalı olub. BMT çərçivəsində, eləcə də ATƏT, Avropa Şurası, NATO, Qara Dəniz Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq qurumların Parlament Assambleyalarında Azərbaycan və Rumıniya hər zaman bir-birinə siyasi dəstək nümayiş etdirib.

Azərbaycanın və Rumıniyanın yüksəksəviyyəli rəsmilərinin qarşılıqlı səfərləri ikitərəfli siyasi dialoqun artan dinamika ilə inkişafına müsbət təsir göstərir. 2004-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı statusunda Rumıniyada ilk dəfə rəsmi səfərdə olub. Azərbaycan Prezidentinin Rumıniyanın rəsmiləri ilə keçirdiyi görüşlərdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin perspektivləri, regional əməkdaşlıq, beynəlxalq məsələlər ətrafında geniş müzakirələr aparılıb və yeni təşəbbüslər irəli sürülüb. Bəhs olunan səfər zamanı iki ölkə arasında 11 sənəd imzalanıb. 2009-cu il sentyabrın 28-də Buxarestdə iki ölkə prezidentləri tərəfindən “Rumıniya ilə Azərbaycan arasında strateji tərəfdaşlığın qurulması haqqında Bəyannamə” imzalanıb. Bu sənəd ikitərəfli münasibətlərin yol xəritəsi sayılır. Bəyannamə Azərbaycanın Avropa İttifaqına üzv dövlətlərlə strateji tərəfdaşlığa dair imzaladığı ilk belə sənəddir. Sonrakı mərhələdə hər iki tərəfin siyasi iradəsinə uyğun olaraq tərəfdaşlıq münasibətlərinin hüquqi bazası daha da möhkəmləndirilib.

2022-ci il oktyabrın 1-də isə Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimi çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanın paytaxtı Sofiyada Rumıniyanın Baş naziri Nikolae-Yonel Çuke ilə görüşüb. Görüşdə dövlətimizin başçısı Azərbaycanla Rumıniya arasında münasibətlərin strateji tərəfdaşlıq əsasında inkişaf etdiyini xüsusi vurğulayıb. Prezident İlham Əliyev ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin, geniş əməkdaşlıq əlaqələrinin mövcud olduğunu bildirib.

Azərbaycanın dövlət başçısının dost Rumıniyaya növbəti səfəri 2022-ci il dekabrın 17-də gerçəkləşib. Səfər zamanı Buxarestdə Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniya Prezidenti Klaus Yohannis ilə görüşü olub. Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğu qeyd edilib, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyəti vurğulanıb. Ötən ilin 2-3 fevral tarixində isə Rumıniya Prezidenti Azərbaycanda rəsmi səfərdə olub. Bütün bunlar deməyə əsas verir ki, iki ölkə arasında əlaqələr yüksələn xətlə inkişaf edir. Xarici İşlər nazirlikləri arasında aparılan siyasi məsləhətləşmələr isə Azərbaycanla Rumıniyanın diplomatik münasibətlərinin inkişafına əhəmiyyətli təsir göstərir.

***Nardar BAYRAMLI***

# Azərbaycanın yaşıl gündəliyi

Uğurlu inkişaf modelinə malik olan Azərbaycan özünün ölkənin potensialı və reallıqları əsasında qurulan siyasətində həmçinin qlobal çağırışları da nəzərə alır. Hazırda dünyada yaranan əsas çağırışlardan biri ətraf mühit problemləri, yaşıl transformasiyalarla bağlıdır. Ölkəmiz də bu mühüm çağırışa son dərəcə həssaslıqla yanaşır və gördüyü tədbirlərlə qlobal həmrəyliyə dəstəyini verir. Qeyd edək ki, respublikamızın yaşıl siyasəti yalnız Xəzər sahillərindəki, Abşerondakı, işğaldan azad olunmuş ərazilərdəki, Naxçıvandakı zəngin potensialdan bəhrələnməklə yaşıl enerji istehsalının artırılmasını əhatə etmir. Bu istiqamətdə Azərbaycanın siyasəti daha geniş məzmuna malikdir.

**Bütün dünya ölkələri üçün çalınan həyəcan təbili**

Hazırda iqlim dəyişmələrinin və dekarbonizasiya məsələlərinin qlobal miqyasda əsas çağırışlardan biri kimi gündəmə gəlməsi heç də təsadüfi deyil. Açıq statistikaya əsasən planetimizdə son yüz il ərzində havanın illik temperaturu 1 dərəcə artıb. Ən dəhşətlisi odur ki, temperaturun 0,75 dərəcə artımı son onilliyə təsadüf edir. Çox doğru olaraq bu tendensiya qlobal miqyasda sənaye inkişafının genişlənməsi ilə əlaqələndirilir. Yer üzündə həyatın tam məhv olması üçün isə temperaturun 10-15 dərəcə artması kifayətdir. Xəbərdarlıq edilir ki, əgər temperaturun artması belə davam edərsə, onda 130-200 ildən sonra Yerdə həyat mövcud olmayacaq. Antropogen fəaliyyət zamanı atmosferə atılan hissəciklər və qazlar nəinki iqlim sferasında qlobal dəyişikliklərlə nəticələnir, həm də insan sağlamlığına birbaşa mənfi təsir göstərir. BMT-nin məlumatına görə, dünyanın 99 faizi havanın çirklənməsindən təsirlənir. Bu da ildə 6,5 milyon insanın vaxtından əvvəl ölümünə səbəb olur. Fəsadlardan heç bir ölkə sığortalanmayıb. Həyəcan təbili, necə deyərlər, hər yerdə və hamı üçün çalınır.

Azərbaycan da qlobal iqlim dəyişmələrindən əziyyət çəkən ölkələr sırasında yer alır. Bir qədər bundan əvvəl "Azərkosmos" "Yaşıl dünya naminə həmrəylik İli"nə həsr olunmuş konfransda qlobal iqlim dəyişmələrinin Azərbaycanda təsirinə dair hazırladığı rəqəmsal iqlim platformasını ictimaiyyətə təqdim edib. "Azərkosmos"un peyk görüntülərinə dayanaraq apardığı hesablamalar göstərir ki, ölkədəki su anbarlarının çoxunda azalmalar baş verib. Məsələn, 2017-ci ildə ölkənin ən böyük su anbarı olan Mingəçevir su anbarının güzgü səthinin sahəsi 48 min 259 hektar idisə, ötən il bu rəqəm 46 min 438 hektara enib. Deməli, 2 min hektara yaxın azalıb. "Azərkosmos"un hesablama apardığı Araz su anbarında bu azalma 1 min 800 hektar, Yenikənd su anbarında 74 hektar, Taxtakörpü su anbarında isə 286 hektar olub. "Azərkosmos" peyk görüntüləri ilə ölkənin ən böyük çayı olan Kür çayını da monitorinq edib. Həmin görüntülərin təhlili göstərir ki, 2020-ci ildə Kürün Salyan şəhəri yaxınlığından keçən hissəsində çayın orta eni 101 metr idisə, 2023-cü ilin eyni dövründə bu göstərici 93 metrə enib.

**Azərbaycanın 5 milli prioritetindən biri**

Bəhs etdiyimiz qlobal mənzərə ölkələrin məsuliyyətini artırır. Hər bir dövlət öz siyasətində dekarbonizasiya, ətraf mühit məsələlərini önə çəkmelidir. Bu mənada məsuliyyətli dövlət olan Azərbaycanın yanaşması təqdirəlayiqdir. Respublikamız iqlim dəyişiklikləri ilə bağlı BMT-nin çağırışlarına fəal şəkildə qoşulan ölkələr sırasında yer alır. Azərbaycan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına 1995-ci ildə qoşulub və Konvensiyanın Kioto Protokolunu 2000-ci ildə təsdiqləyib. Kioto protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinin 2-ci dövrü üçün qəbul edilmiş Doha əlavəsi 14 aprel 2015-ci ildə Milli Məclis tərəfindən ratifikasiya edilib və ölkə Prezidenti tərəfindən təsdiqlənib. Digər bir mühüm beynəlxalq sənəd olan Paris Sazişi isə 2016-cı il oktyabrın 28-də Milli Məclis tərəfindən ratifikasiya olunub.



Ölkəmiz neft istehsalı sahəsində sıfır emissiyaya fəaliyyəti hədəfləyib və bu sahədə qlobal tərəfdaşlığa öz töhfələrini verir. Azərbaycan Dövlət Neft Şirkəti 2008-ci ildən GGFR-in rəhbər komitəsinin üzvüdür. Respublikamızda həyata keçirilən layihələr nəticəsində il ərzində atmosferə atılan 1 milyard kubmetr qaz yığılaraq əhalinin istifadəsinə yönəldilib. SOCAR tərəfindən səmt qazının azaldılması tədbirləri Dünya Bankının Ekspert Şurası tərəfindən bir neçə dəfə ali mükafata layiq görülüb. Hazırda neft hasilatı zamanı səmt qazının emissiyası göstəricilərinin aşağı olmasına görə Avropa İttifaqına neft ixrac edən əsas 10 ölkə arasında Azərbaycan birinci yeri tutur. Bütün neft-qaz əməliyyatlarında 2030-cu ilə qədər normal hasilat prosesində məşəldə yandırmaların sıfıra endirilməsi, 2022-ci il bazа dövrü ilə müqayisədə 2030-cu ilə qədər "Upstream" seqmentində emissiya intensivliyinin 30 faiz, 2035-ci ilə qədər korporativ emissiya intensivliyinin 30 faiz azaldılması, 2035-ci ilə qədər "Sıfır metan" hədəfinə yaxınlaşılması və 2050-ci ilə qədər "Xalis sıfır" hədəflərinə çatılması SOCAR-ın əsas məqsədlərindən biridir.

Ölkənin ərazi bütövlüyünün bərpasından sonra başlayan yeni strateji mərhələdə ətraf mühit məsələləri ölkəmizin əsas prioritetləri səviyyəsinə yüksəldilib. Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində ekologiyanın mühafizəsinə xüsusi diqqət ayrılıb. Qəbul olunan yeni strategiyaya əsasən respublikamızda növbəti on il üçün müəyyənləşdirilən strateji dönəmdə 5 milli prioritetin reallaşdırılması istiqamətində zəruri tədbirlərin görülməsi nəzərdə tutulub ki, bunlardan biri də təmiz ətraf mühit prioritetidir. Strategiyaya əsasən Azərbaycanın yaxın perspektivdə yaşıl artım ölkəsinə çevrilməsi yalnız yaşıl enerji istehsalının artırılmasını deyil, bütövlükdə respublikamızın transformasiyasının digər mühüm istiqamətlərini də əhatə edir. Bura həm dekarbonizasiya məsələləri, həm də yaşıllıqların qorunması və artırılması, eləcə də su və digər təbii sərvətlərdən daha səmərəli istifadə edilməsi daxildir.



**Paytaxtda və regionlarda salınan yaşıllıqlar**

BMT-nin əsas tədbirlərindən biri olan COP29 iqlim konfransına ev sahibliyi hüququnu öz üzərinə götürməsi, həmçinin dövlət başçısının müvafiq sərəncamı əsasında 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik İli" elan olunması Azərbaycanın ətraf mühit məsələlərinə məsuliyyətli yanaşmasının əyani təsdiqidir. Ölkəmizin yaşıl siyasətində, həmçinin paytaxtda və regionlarda yaşıllıqların artırılması istiqaməti mühüm yer tutur. Prezident İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi Dövlət Proqramı sənədlərində ekoloji mühitin sağlamlaşdırılması məqsədilə bir sıra mühüm vəzifələr müəyyənləşdirilib və biomüxtəlifliyin mühafizəsi, su və digər təbii ehtiyatların davamlı idarə olunması sahəsində nəzərəçarpacaq nailiyyətlər əldə olunub.



Ölkəmizdə dövlət başçısının 18 fevral 2003-cü il tarixli fərmanına əsasən "Meşələrin bərpa edilməsinə və artırılmasına dair Milli proqram" təsdiq edilib. Sənədin icrası 2008-ci ildə böyük uğurla tamamlanıb. Milli Proqramda Talış meşələrində qədim dövrlərdən bu günə qədər gəlib çatmış relikt və endem ağac cinslərinin qorunması, mühafizəsi, bərpası və onların yayılma ərazilərinin artırılması, Kür-Araz çayları ətrafında Tuqay meşələrinin bərpası, rekonstruksiya yolu ilə cins tərkibinin yaxşılaşdırılması, dağlıq ərazilərdə meşələrin qoruyucu funksiyalarını yüksəltmək üçün bərpa olunması, Abşeronun arid ərazilərində təbii landşaftı dəyişdirərək, onun yerində meşə landşaftının yaradılması və s. məsələlərin həllinə xüsusi diqqət yetirilib. Proqramın icrası çərçivəsində 60 min hektara yaxın sahədə meşələr bərpa olunub və yeni meşələr salınıb. Bu göstərici əvvəlki 5 illə müqayisədə 2 dəfə çox olub. O cümlədən Milli Proqramın icrası çərçivəsində Abşeron yarımadasında, Bakı şəhərinin ətraf ərazilərində 1087 hektar sahədə yeni meşə və yaşıllıqlar salınıb.

Bəhs olunan Milli Proqramın icra müddəti 2008-ci ildə tamamlansa da, ölkədə yaşıllıqların artırılması sonrakı dövrdə də intensiv şəkildə davam etdirilib. Ümumiyyətlə, son illərdə ölkə üzrə yaşıllaşdırma iki istiqamətdə aparılıb. Birinci istiqamət Abşeron yarımadasında aparılan yaşıllaşdırma işlərini əhatə edir. Proqrama uyğun olaraq Zığ gölünün və Heydər Əliyev adına Beynəlxalq hava limanına gedən magistralın ətrafında, Sabunçu dairəsində, Bakı yamacı - 20-ci Sahə arasındakı ərazilərdə, bütövlükdə Bakıətrafı ərazilərdə 3 milyon ədəd ağac əkilməsi qarşıya hədəf qoyulub.

Yaşıllaşdırma ilə bağlı ikinci istiqamət isə respublikanın magistral yollarının kənarlarında yaşıllıq zolaqlarının salınmasını əhatə edir. Prezident İlham Əliyev "Magistral avtomobil yollarının mühafizə zolaqlarının yaşıllaşdırılması" haqqında 30 oktyabr 2007-ci il tarixli sərəncam imzalayıb və bu məqsədlə lazımi qədər maliyyə vəsaiti ayrılıb. Birinci mərhələdə Bakı-Ələt, Ələt-Salyan və Ələt-Atbulaq istiqamətində həyata keçirilən işlərin perspektivdə də davam etdirilməsi nəzərdə tutulur.

Ötən il ölkə ərazisində 2500 hektar ərazidə 3 milyon 200 mindən çox ağac və kol tingi əkilib. Bundan əlavə, meşə fondu torpaqlarında bərpa məqsədilə 32 tona yaxın meşə cinslərinə aid ağac və kolların toxumları səpilib. "Yaşıl dünya naminə həmrəylik İli"ndə isə 5 milyon ağacın əkilməsi planlaşdırılır.

Ölkə ərazisində başlayan yaşıl hərəkatda Bakının yaşıllıqlarının artırılması xüsusi diqqət mərkəzində saxlanılır. Qeyd edək ki, dövlətimizin başçısının tapşırığı ilə paytaxtımızda parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə ardıcıl tədbirlər davam etdirilir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Elə bu günlərdə Prezident İlham Əliyevin iştirakı ilə Nərimanov rayonu ərazisində yenidən qurulan Nərimanov parkı sakinlərin və şəhərimizin qonaqlarının istifadəsinə verilib.

**Heydər Əliyev Fondunun töhfələri**

Paytaxt Bakıda və regionlarda yaşıllaşdırma işlərinin aparılmasına Cənubi Qafqaz regionunun ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu da hərtərəfli dəstək verir. Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ölkəmizdə yaşıllıqların artırılmasına, mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Mehriban xanım Əliyevanın "Hərəyə bir ağac əkək!" devizi ilə keçirilən aksiyalarda milyonlarla yeni ağac və kol əkilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın da bu istiqamətdə atdığı addımlar davamlıdır və təqdir olunur. Leyla Əliyevanın rəhbərlik etdiyi İDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təşkil etdiyi layihələr ekoloji mühitin qorunmasına xidmət edir. İDEA İctimai Birliyinin, "ASAN xidmət" və "Təmiz Şəhər" ASC-nin birgə təşkilatçılığı əsasında keçirilən "Hər kağızı bir yarpağa dəyişək" aksiyası çərçivəsində Balaxanı poliqonunda böyük ərazi yaşıllaşdırılıb. 2014-cü il 7 may tarixində İDEA İctimai Birliyinin təşəbbüsü, Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin təşkilati dəstəyi ilə Heydər Əliyev Mərkəzində Qafqaz Biomüxtəlifliyi Sammiti keçirilib ki, bu da bəbir və digər pişikkimilərin mühafizəsi istiqamətində bilik və təcrübələrin bölüşdürülməsi, bu sahədə ən qabaqcıl və səmərəli vasitələrin tətbiqinin müzakirəsi məqsədini daşıyırdı. Son illərdə Heydər Əliyev Fondu regionlarda meyvə bağlarının salınmasında yaxından iştirak edir. Fond tərəfindən paytaxtda reallaşdırılan və məhəllələrin abadlaşdırılmasını əhatə edən layihə də sakinlər tərəfindən minnətdarlıqla qarşılanır.

***Mübariz ABDULLAYEV***

# Maqdalena Qrono gözləntiləri doğruldacaqmı?

## O, sələfi Toivo Klaardan fərqli olaraq obyektivlik nümayiş etdirməlidir

Avropa İttifaqının (Aİ) Siyasi və Təhlükəsizlik Komitəsi təşkilatın Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə yeni xüsusi nümayəndəsinin namizədliyini təsdiqləyib. Bu vəzifədə Toivo Klaarı əvəz edəcək şəxs Maqdalena Qrono olacaq. Yaxın vaxtlarda onun təyinatının Avropa İttifaqı Şurası tərəfindən rəsmən təsdiqlənəcəyi gözlənilir.

**Toivo Klaar öz xələfini təbrik edib**

Artıq Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə indiki xüsusi nümayəndəsi Toivo Klaar bu vəzifədə özünün davamçısı olan Maqdalena Qrononu təbrik edib. Bu barədə avropalı diplomat "X" sosial şəbəkəsindəki hesabında paylaşım edib. "Təbriklər Maqdalena. O, bu vəzifə üçün zəngin təcrübəyə malikdir", - deyə T.Klaar vurğulayıb.

Hazırda Cənubi Qafqazda sülhün təmin olunması məqsədilə bir sıra beynəlxalq platformalar çərçivəsində müzakirələr aparılır. Azərbaycan regionda sülhün bərqərar olması naminə irəli sürülən beynəlxalq təşəbbüsləri dəstəkləyir. Lakin bu təşəbbüslər birtərəfli olmamalı, beynəlxalq hüquq normalarına və ədalət prinsiplərinə əsaslanmalıdır. 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan dövləti Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün təşəbbüslərlə çıxış edib. Ermənistanla sülh sazişi imzalamaq təklifi də ilk olaraq Azərbaycan tərəfindən verilib. Münaqişə başa çatdıqdan sonra xalqımızın uzun illər ərzində məruz qaldığı əzab-əziyyətə, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, Azərbaycan Ermənistanla davamlı sülhün təmin edilməsi istiqamətində fəal iş aparır. Məqsəd regionun sülh, sabitlik və əməkdaşlıq məkanına çevrilməsidir.

**Avropa İttifaqının mövqeyi...**

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində vasitəçilik edən beynəxalq aktorlardan biri də Avropa İttifaqıdır. Belə ki, İkinci Qarabağ müharibəsi bitdikdən sonra Cənubi Qafqazda sülhün təmin olunması üçün Avropa İttifaqı müəyyən təşəbbüslərlə çıxış etdi. Təşkilatın prezidenti Şarl Mişelin vasitəçiliyi ilə 2021-ci ilin dekabr ayında Brüsseldə Azərbaycan və Ermənistan liderlərinin ilk görüşü keçirildi. Bundan sonra, Brüssel formatı çərçivəsində liderlərin bir neçə görüşü baş tutub.

Lakin ötən ilin sentyabr ayında ordumuzun Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirlərindən sonra Avropa İttifaqının mövqeyində ədalətsiz yanaşma özünü göstərdi. Halbuki antiterror tədbirləri nəticəsində dövlət suverenliyimizin tam bərpa olunması ümumilikdə regionda təhlükəsizliyin



möhkəmlənməsi və sülhə nail olunması üçün imkanlar yaradır. Antiterror tədbirlərindən sonra Şarl Mişel "Euronews" kanalına müsahibə verərək qeyri-obyektiv münasibət sərgilədi. Bundan əlavə, Qranadada Avropa Siyasi Birliyinin sammiti çərçivəsində keçirilən Aİ, Almaniya, Fransa və Ermənistan liderlərinin dördtərəfli görüşündə Azərbaycanın iştirakı olmadan bəyanatın qəbul edilməsi, eləcə də bəyanatda qeyri-obyektiv məqamların yer alması qəbuledilməzdir.

**Klaarın erməni təəssübkeşliyi...**

Görünən odur ki, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi Ermənistanı havadarlıq edən beynəlxalq dairələri, o cümlədən erməni diasporu və lobbisini ciddi narahat edir. Belə qüvvələr Avropa İttifaqının daxilində də var. Təsadüfi deyil ki, Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə indiki xüsusi nümayəndəsi Toivo Klaar da dəfələrlə ermənipərəst açıqlamalar səsləndirib. Məsələn, onun bu ilin may ayındakı açıqlaması da buna sübutdur. Belə ki, Azərbaycan mediasında Qazax rayonunun Ermənistanın işğalı altında olan kəndlərinin geri qaytarılması ilə bağlı prinsipial mövqe sərgilənməsi cənab Klaarı "narahat" etmişdi. Bu səbəbdən də, o özünün sosial şəbəkə hesabında mediamızın sərgilədiyi mövqeyə əsassız yanaşma ortaya qoymuşdu. Toivo Klaar iddia etmişdi ki, guya Azərbaycan mediasında Ermənistana qarşı təhdid var: "Azərbaycan mətbuatında Ermənistana qarşı təhdidlər qəbuledilməzdir".

Əslində, Klaar beynəlxalq hüquq prinsiplərindən çıxış etsəydi, Azərbaycanın işğal altında olan kəndlərinin birmənalı şəkildə qaytarılması olduğunu bəyan etməliydi. Çünki Azərbaycan öz kəndlərini Ermənistandan tələb etməklə beynəlxalq hüququn təmin olunmasına çalışır. Lakin T.Klaar isə birbaşa olaraq ermənipərəst mövqe sərgiləmişdi. İlk vaxtlarda xüsusi nümayəndə göründü olaraq balanslı mövqe sərgiləsə də, Azərbaycanın öz ərazi bütövlüyü ilə yanaşı suverenliyini də bərpa etməsi, Qarabağda erməni separatizminə son qoyması Aİ-nin xüsusi nümayəndəsinin gerçək simasını ortaya çıxardı. Amma Klaarın bu ermənipərəstliyi nəticə vermədi. Çünki Qazaxın işğal altında olan 4 kəndi Azərbaycana qaytarıldı. Bununla da beynəlxalq hüquq və tarixi ədalət qalib gəldi. Bundan başqa, Toivo Klaarın bu ilin əvvəlində Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyanın rəhbərliyi altında "artsax üzrə beynəlxalq komitəsinin" üzvləri ilə görüşməsi də onun erməni təəssübkeşi olmasının göstəricisidir.

Bununla belə, dövlətimiz sülh prosesi çərçivəsində danışıqların davam etməsində maraqlıdır. Ümid edək ki, Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə yeni xüsusi nümayəndəsi xanım Maqdalena Qrono öz fəaliyyətində tam obyektivlik nümayiş etdirəcək. Avropa İttifaqı Cənubi Qafqazda sülhün təmin olunmasına töhfə vermək istəyirsə, beynəlxalq hüququ və ədalət prinsipini əsas götürməlidir.

***Nardar BAYRAMLI***



# Sənətin məğrur keşikçisi...

## Musiqişünas alim Ceyran Mahmudovanın 60 illik yubileyinə...

Yaradıcı insan olmaq nə qədər çətindirsə, bir o qədər şərəfli, qürurlu və həm də güvənlidir. Niyə güvənli? Çünki əsl yaradıcı insanın yaratdığı onu özündən sonra da yaşadan ən güvənli, ən etibarlı xəzinədir. Bəs yaradıcı insanın ailəsində doğulub, gözünü sənətkarlar mühitində açıb, özün də yaradıcı kimi yetişmək necədir? Yəqin ki, ikiqat məsuliyyət, ikiqat qürurdur. Bəlkə də çoxlarına elə gələr ki, bu, dünyanın ən asan işidir və belə insanlar "bəxti gətirmiş insanlardır". Təbii ki, minlərin, milyonların sevgisini qazanan, adi insanlar üçün əlçatmaz olan şəxsiyyətin sənin ailə üzvün olması və belə bir nümunədən həyat dərsi almaq bəxti gətirməkdir, amma bir də var o ada, o şöhrətə layiq olmaq məsuliyyəti... Bax, burada hər şey bir az da çətinləşir. Yadımdadır, tələbə vaxtı böyük Xalq yazıçımız İsa Hüseynovun (Muğanna) ədəbiyyatçı qızı Sevinc Muğanna bizə dərs deyərkən onun yazıçılığa olan sonsuz sevgisini və istedadını müşahidə edib, soruşmuşdum ki, niyə yazıçı olmadınız? Demişdi ki, "çünki qarşımda İsa Hüseynov kimi dahi yazıçı var idi. Gəncliyimdə yazmağa həvəsli idim. Amma düşündüm ki, İsa Hüseynovun qızı olaraq ondan böyük yazıçı ola bilməyəcəyəmsə, onda heç yazıçı olmağıma gərək yoxdur". Bu məsuliyyət hissi bir insanın istedadının boğulmasına, arzularının ürəyində qalmasına gətirib çıxartmışdı... O da ədəbiyyatın nəzəriyyə sahəsinə yönəlmişdi...

Bu yazımın qəhrəmanının məsuliyyəti isə daha artıq olub. Çünki o, təkcə bir dahi sənətkarın qızı deyil, həm də başqa bir dahi sənətkarın nəvəsidir. Yaradıcılıq ona qanla, canla ötürülüb, hələ heç özü doğulmadan ömür kitabına silinməz mürəkkəblə yazılıb. Bu gün onun fəaliyyətinə, keçdiyi şərəfli ömür yoluna, yaradıcı taleyinə nəzər salanda isə bircə söz demək gəlir içimdən: "nə yaxşı ki, elə bu cür də yazılıb".

Söhbət tanınmış musiqişünas alim, Əməkdar incəsənət xadimi, professor Ceyran Mahmudovadan gedir. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Sabit Rəhmanın nəvəsi, Azərbaycan musiqisinin əvəzedilməz ismi Emin Sabitoğlunun qızı Ceyran Mahmudova bütün ömrü boyunca bu təyinləri şərəflə, qürurla, layiqincə öz adının önündə daşımağı, onlara daha böyük təyinlər əlavə etməyi bacarıb.

Bu gün (19 iyul) Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, Əməkdar incəsənət xadimi, professor Ceyran xanım Mahmudova 60 illik yubileyini qeyd edir.

O, 1964-cü ilin bu günü Bakı şəhərində tanınmış bəstəkar Emin Sabitoğlunun ailəsində dünyaya göz açıb. Onun anası da musiqi müəllimi idi, uzun illər Bülbül adına Orta İxtisas Musiqi Məktəbində dərs deyib.

Ceyran Mahmudova da 1971-1982-ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində təhsil alıb. 1982-1987-ci illərdə təhsilini Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının tarixi-nəzəriyyə fakültəsində davam etdirib. 1991-ci ildən 2017-ci ilədək Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında dosent, professor vəzifəsində çalışıb.

AAK-ın Sənətşünaslıq və memarlıq üzrə ekspert şurasının üzvü, 2 monoqrafiya, ali məktəblər üçün 2 dərs vəsaiti, orta məktəb müəllimləri üçün 2 metodik vəsait, 50-dən çox elmi məqalə müəllifidir.

2017-ci ildən ADMİU-nun "Musiqi sənəti" fakültəsinin dekanı vəzifəsində çalışıb. Həmçinin, vaxtilə "Mədəniyyət" kanalında yayımlanan "Musiqi xəzinəsi" verilişinin aparıcılarından biri olub.

30 iyul 2018-ci ildə cənab Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru təyin edilib.

13 dekabr 2023-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyi münasibətilə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb.

Ceyran xanım çox maraqlı, məsuliyyətli və şərəfli ömür yaşayıb. Uşaqlıq illərini, gəncliyini, valideynləri ilə yaşadığı günlərin xatirələrini çox sevir. Xüsusən, atası ilə bağlı jurnalistlərin illərdən bəri tez-tez ünvanladığı, maraqlandığı sualları cavabsız qoymamağa çalışır. Çünki bilir ki, Emin Sabitoğlu onun atası olmaqla yanaşı, xalqının bütün dövrlərdə sevilən və maraq duyulan sənətkarıdır. Sənətin, sənətkarın qədrini, qiymətini də Ceyran xanımdan daha yaxşı kim bilər ki?! Axı o, gözünü sənətkar mühitində açmışdı, bu mühitin çətinliyini də, yaradıcı insan həssaslığını da ən gözəl o bilirdi. Öncə atasından, sonra isə özündən...

Bu həssaslıq onun daxili dünyası ilə yanaşı, ətraf aləmə də təsirsiz ötüşmür. O, anlayışlı olmağı, öz istəklərini təxirə salmağı, bir növ "barmaq ucunda yaşamağı" hələ ta uşaqlığından öyrənmişdi. Atasının qaçaraq həyatından, övladı ilə keçirəcəyi vaxtı ondan alan əsərlərindən, tamaşalarından... Bu, onun şəxsiyyətində yeni bir xarakter formalaşdırmışdı: hər şeyə və hər kəsə qarşı anlayışlı olmaq. Və o, anlayışlı olmağa elə atasından başlamışdı. Müsahibələrinin birində söylədiyi fikirlər bunun bariz nümunəsidir:

"Başqa valideynlər uşaqlarına necə qayğı göstərirsə, o da elə idi. Bütün atalar kimi. Məni tez- tez teatra aparırdı. Buna görə də uşaqlıqdan teatrı xoşlamışam. Desəm ki, bütün günü birlikdə vaxt keçirirdik, gəzməyə gedirdik, yalan olar. Çünki atam məşğul adam idi. Həm akademiyada dərs deyir, həm də kinostudiyada çalışırdı. Teatrlarla işləyirdi. Bundan əlavə, mən də musiqi məktəbində oxuyurdum, vaxtım olmurdu. Tətilləri yay aylarında həmişə birlikdə keçirirdik.

Adi ailələrdə ata 9-dan 6-ya kimi işləyirdisə, mənim atamın iş vaxtı konkret qrafikə tabe deyildi. Axşam tamaşa var idisə, gedirdi. Filmlərə musiqi yazanda isə mütləq çəkilişlərdə iştirak edirdi. Formal yanaşmırdı, prosesi izləyirdi. Teatra məşq prosesinə gedirdi".

Yazımın əvvəlində övlad məsuliyyətindən danışdım. Bilmirəm, Ceyran xanım da Sevinc Muğanna kimi atası qədər böyük bəstəkar olmamaqdan çəkindiyi üçünmü musiqi nəzəriyyəsinə yönəlib, yoxsa öz istəyi, arzusu ilə bu yolu seçib. Amma tale göstərdi ki, o, elə ən doğru, ən uğurlu yolu seçib, həm özü, həm də ailəsi üçün... Axı Emin Sabitoğlu yaradıcılığını qızı Ceyran Mahmudovadan yaxşı kim araşdıra, kim təqdim edə bilərdi ki?! Ceyran Mahmudova məhz bu cür uğurlu tədqiqatların müəllifidir. O, musiqini beşikdən öyrənməyə başlamışdı. Onun ilk müəllimləri evində, qonşuluğunda, həyatının hər yerində idilər. Axı onlar bəstəkarların binasında, Arif Məlikov, Vasif Adıgözəlov, Ramiz Mustafayev, Oqtay Zülfüqarov, Ağabacı Rzayeva, Süleyman Ələsgərov, Tofiq Quliyev, Əşrəf Abbasov, Xəyyam Mirzəzadə, Şəfiqə Axundova kimi dahilərin qonşuluğunda yaşayırdılar. Şübhəsiz, onun uşaq təfəkkürü bunun nə demək olduğunu o zamanlarda anlamasa da, mühitin özü şüurunun alt qatına təsirsiz ötüşməmişdi. "Arif müəllimin bəzi simfoniyalarının necə yazıldığını biz eşitmişdik" cümləsi elə ilkin musiqi məktəbinin təsviri deyilmi?!

C.Mahmudova milli musiqimizə, ədəbiyyatımıza, adət-ənənələrimizə, dəyərlərimizə, Vətənə, onun insanına və dövlətçiliyimizə son dərəcə bağlı olan, onun təəssübünü çəkən ictimai xadimdir. Onun rəhbərliyi altında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti gündən-günə yeni, müasir, dünya yaradıcı ali təhsil ocaqlarının təcrübələrinə söykənən bir istiqamətdə addımlasa da, milli-mənəvi dəyərlərimizi, soykökümüzü unutmur, tələbələri yenilikçi təfəkkürdə, amma milli ruhda yetişdirir.

"Yaradıcı insan üçün təriflənmə, qəbul edilmə çox vacibdir. Onlar həssas olurlar"- fikri ilə yanaşır Ceyran xanım həm bütün işçilərinə, həm də tələbələrinə. O, tələbələrə sabahın sənətkarları, yaradıcı şəxsiyyətləri kimi yanaşır və elə ilk tədris ilindən bu cür yetişməkləri üçün mövcud bütün imkanları səfərbər etməkdən çəkinmir. Bu, təkcə rektorun rəhbərlik etdiyi universitetə xidməti, ona verilən vəzifənin icrası deyil, həm də bir yaradıcı şəxsiyyətin yaradıcılıq eşqi, sənət sevgisi, Vətən təəssübüdür.

Yubiley yaşı münasibəti ilə Ceyran Mahmudovanı təbrik edir, ona möhkəm can sağlığı, həm ictimai xadim, həm də yaradıcı şəxsiyyət kimi fəaliyyətində daha böyük uğurlar arzu edirik!

*Şahanə MÜŞFİQ*

# Atalıq taxtından yıxılan kral

## Vilyam Şekspirin "Kral Lir" faciəsi haqqında

Göründüyü kimi, kral Lirin nəzərində bir insanın təbiətin verdiyi doğub-törəmək qabiliyyətindən məhrum olması, bətninin quruması, soyunun kəsilməsi onun ən böyük bədbəxtliyi, fəlakətidir. Bundan da betər bədbəxtlik, fəlakət övladın nankor çıxmasıdır. Demək, nəsil instinkti kamına çatmayanda da, çatanda da, dünyaya övlad toxumları səpmək ehtirası bar verməyəndə də, verəndə də insanı bədbəxt eləyə bilər. Məşhur məsəldə deyildiyi kimi - cəhənnəmdə bir daş var, götürən də peşmandır, götürməyən də...

***

Reqana atasını böyük bacısından betər qarşılayır. Qonerilyanın əri hersoq Albanidən fərqli olaraq Kornuol hersoqu arvadından da qəddardır. O, Lirin elçisi Kentin ayaqlarını kündəyə vurdurur, krala sadiq Qlosterin gözlərini çıxardır. Bir sözlə, burada kral Lirlə böyük qızının evində olduğundan da pis davranırlar. Reqana onu layiqincə qarşılamağa hazır olmadığı bəhanəsiylə atasından yaxasını qurtarmağa çalışır, ona yüz cangüdənindən böyük bacısının tələb elədiyi kimi əllisini də yox, yalnız iyirmi beşini saxlamağı məsləhət görür.

Az sonra bacılar belə bir ortaq qərara gəlirlər: qocanın heç bir mühafizəçiyə ehtiyacı yoxdur. Bu səhnədə qoca Lirin ata hiddəti, üsyanı ərşə dirənir, kral Qonerilyaya üzünü tutub belə deyir:

*...Ancaq sən yenə də mənim qızımsan,*
*Canımsan, qanımsan, ruhumsan mənim.*
*Nə deyim, bəlkə də mənim canımda*
*Yaranmış, kök atmış bir xəstəliksən.*
*Bəlkə törəmisən xarab qanımdan,*
*Çirk etmiş çibansan, qorxulu şişsən,*
*Hovlamış yarasan, irinli fırsan...*

Beləcə, canını, malını verdiyi iki qızının dönüklüyünü görəndən sonra kral Lirin doğmalıq, qohumluq bağlarına, ata-bala münasibətinə, nəsil instinktinə heç bir etimadı qalmır, övladı mərəzə, çirkə, çibana, irinə bənzədir (Atalarımız da pis deməyib: "Övlad can yonqarıdır"). Qızlarının əlindən ölümcül yara alan qoca havalanıb çöllərə düşür. Ölümün astanasında onun bütün həyatı boyu bəslədiyi xəyallar çiliklənir, illüziyaları puça çıxır.

Bəli, bütün canlılartək insanın da döl verib artmaq, balasını boya-başa çatdırmaq, öz nəslinin qayğısına qalmaq kimi təbii haqqı, vəzifəsi var; fəqət heyvandan, quşdan, həşəratdan fərqli olaraq insan gərək övladına, valideyninə mənəvi tellərlə də bağlana bilsin, yoxsa heyvani münasibətdən uzağa getməyən valideyn-övlad ittifaqı bütün saxta birliklər kimi gec-tez iflasa uğrayar. Kral Lirin qızlarına bağlılığı mənəvi yox, öz eqosunu doyurmağa hesablanmış instinktiv bağlılıqdır, onun övlad heyranlığı ruhani məhəbbət deyil, vücudunu yer üzündə yaşatmağa yönəlmiş (hərçənd patriarxal cəmiyyətin qanunlarından çıxış eləsək, nəsli oğlan yaşadar, Lirinsə oğlu yoxdur) cismani-bioloji istəkdir. Bu səbəbdən böyük qızları onunla heyvanat aləmində olduğu kimi davranırlar - atalarından paylarını alıb azadlığa çıxandan sonra onu qəddarcasına unudurlar.

***

Kent yağışlı-tufanlı çöllükdə Liri tapıb havalanmış kralı bir komaya aparır. Buraya evsiz-eşiksiz, ac-susuz zavallılar, yaşadığı cəmiyyətdən, ailəsindən çıxdaş olunmuş xəstələr, dəlilər, yiyəsizlər toplaşıblar. Sərt təbiətin amansız qoynunda onlar həyatın maskasız-niqabsız gerçək simasıdırlar. Hələ dünən kral taxtında oturub hökm verən Lir indi adam sifətindən çıxmış bu adamlarla bir uçuq komanı bölüşür. Yalnız burada - həyatın dibində yoxsulların çəkdiyi əzabları yaşamaq ona nəsib olur. Bu əzabları çəkdikcə onun hovlamış qürurunun köpü yatır.

Tom adı altında gizlənib özünü dəliliyə vurmuş Edqar da onların arasındadır. Gözləri çıxarılmış Qloster didərgin oğluyla çiyin-çiyinə səfillər ordusunun sıralarında sürünəndə həqiqət ona əyan olur, Edmundun onu aldatdığını, qardaşını şərlədiyini, ümumən ölkədə baş verən fəlakətlərin mərkəzində durduğunu anlayır. Edmund kral Lirin hər iki qızıyla şıdırğı alverə girəndə, mənsəb, hakimiyyət üçün həm əri öldürülmüş Reqana, həm də ərinin qanına susamış, ona ərinin qətlini sifariş vermiş Qonerilya ilə evlənmək əhdi bağlayanda zavallı Edqar kor atasının əlindən tutub səhrada ona bələdçilik eləyir.

Hər bir instinktin, emosiyanın, ehtirasın iki qütbü, iki başı var. Qlosterin övlad instinktinin də iki başından biri Edqar, o biri Edmunddur - biri yaşadır, o biri öldürür; biri müsbət, o biri mənfi emosiyadır; biri yaşamaq ehtirasının, o biri ölüm qorxusunun təcəssümüdür.

Eynən kralın da törəmə ehtirasının müsbət qütbündə gündüz kimi həyat paylayan Kordeliya, mənfi qütbündə gecə kimi ölüm saçan Qonerilya-Reqana bacıları keşik çəkir. Hər iki atanı övladlarına bağlayan nəsil instinktlərinin mənfi qütbləri bir-biriylə çox asanca dil tapır - cüt bacılar Edmundun rəğbətini qazanmaq uğrunda ölüm-dirim yarışına girirlər. Müsbət qütblərinsə hərəsi bir diyarda didərgin ömrü yaşayır - Edqar məcburi sürgündə, Kordeliya könüllü sürgündə. Yaxşıları bir araya gətirmək həmişəki kimi çətindir. Doğrudur, son məqamda xain Edmundu yenə də itaətkar övlad Edqar aradan götürür, ancaq bu nikbin sonluğun bütövlükdə faciəvi aqibəti dəyişməyə heç bir təsiri olmur.

***

Bacıların rəqabəti onunla nəticələnir ki, Qonerilya Reqananı zəhərləyir. Bu da onlar üçün təbii sonluqdur, çünki şər məqsədlər uğrunda ittifaqa girənlər, şər müstəvisində birləşənlər gec-tez bir-birini yeməyə məhkumdurlar. Qonerilyanın özünü öldürməsi də çox təbiidir, çünki hər bir aqressiv niyyət, təcavüzkar instinkt ikibaşlı xəncər kimidir - bir ucu başqasını, o biri ucu insanın özünü kəsər.

Kordeliya son anda atasının harayına yetsə də, onu müşayiət eləyən fransız ordusu məğlubiyyətə uğrayır. Bununla belə, kiçik qız ölüm ayağında olan atasına azacıq təskinlik verməyə, atası da ondan üzr diləməyə macal tapır. İntəhası, kralın bu gecikmiş xoşbəxtliyi də uzun sürmür, Edmundun göstərişiylə qətlə yetirilmiş Kordeliyanın ipdən asılı cəsədi qocaya fələyin, həmin o yaradıcı, doğucu təbiətin sonuncu zərbəsi olur. Pisliklə birgə yaxşılıq da qara torpağa gömülür, ana təbiət verdiklərini rəhmsizcəsinə geri alır. Fitnə-fəsad dəyirmanı Edmundu da dişli təkərinin altında qoyan zalım fələk insaflı hersoq Albaninin, mərhəmətli Edqarın timsalında bəşər nəslinin gələcəyinə optimist baxmaq üçün pessimizm girdabında çabalayan oxucuya xırdaca bir şans verir.

***

Kral Lir nəyin cəzasını çəkir, onun günahı nədir? Yalnız təkəbbürün, qürurun, özünəvurğunluğun, ərköyünlüyün müqabilində bunca ağır cəza həddindən artıq çoxdur. Bəs onda nə?

Məsələ burasındadır ki, Şekspirin qalan məşhur faciələri kimi bu pyesi də didaktik poema, nəsihətamiz pritça deyil. Şekspir resept vermir, resepti onun yazdıqlarından biz özümüz hasil eləyə bilərik.

Mənə qalsa, dahi dramaturq insanı hər cür ehtirasdan xali dinc həyata, stoiklərin apatiya, epikürçülərin ataraksiya, buddistlərin nirvana dediyi bir ruhani mərtəbəyə, mənəviyyat qatına çağırır. Şahzadə Hamlet çiyinində ata yükü gəzdirirdisə, kral Lir kürəyində üç övladının cəsədini daşıyır. Hər iki hal insanın ayrıca fərd olmasına, müstəqil şəxsiyyət kimi formalaşmasına ölümcül əngəl törədir.

Əgər kral Lir də Əyyub peyğəmbər kimi mömin həyat sürsəydi, ya imperator Mark Avreli kimi müdriklik mərtəbəsinə qalxa bilsəydi, nə özünün, nə də övladlarının faciəsinə səbəb olardı. Onun faciəsi instinktlərə, heyvani-cismani bağlara həddindən artıq etimad bəsləməsindən doğur. Bioloji övlad həm də mənəvi övlada çevrilmirsə, gec-tez mütləq ona həyat verənin qəniminə çevriləcək.

*F.Uğurlu*

**P.S. Mətndən sitat gətirdiyimiz parçalar mərhum tərcüməçi Sabir Mustafanın çevirməsindən götürülüb.**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Şərəfli ömür yolu...

## Azərbaycanın qəhrəman hərbi həkimi

Azərbaycan xanımları hər zaman qəhrəmanlıqları ilə örnək olub. Tariximiz təkcə oğullarımızın deyil, qəhrəman qadınlarımızın da şücaəti ilə zəngindir. Onların arasında diplomatlar, hökmdarlar, hətta sərkərdələr, döyüşçülər də olub. Tarixən erməni tacavüzkarlarına qarşı mübarizə aparan, şücaət göstərən qadınlarımız bu gün də yaddaşlarda, qəlblərdə yaşayır.

Qəhrəman xanımlarımızdan danışarkən Gültəkin Əsgərovanın adını xüsusi qeyd etmək yerinə düşər. Vətənin taleyi təhlükədə olanda, ərazilərimizə yad əllər uzananda yurdun müdafiəsinə qalxanlardan biri də adı Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış Gültəkin Əsgərova oldu.

O, 20 noyabr 1960-cı ildə Bakı şəhərində dünyaya göz açıb, 1978-ci ildə Nərimanov rayonundakı 200 saylı orta məktəbi əla qiymətlərlə bitirib. 1983-cü ildə Azərbaycan Dövlət Tibb Universitetinə daxil olub və təhsilini 1989-cu ildə başa vurub. Təhsil illərində Daxili İşlər Nazirliyinin Hərbi Hospitalında əvvəlcə kiçik tibb bacısı, sonra isə böyük tibb bacısı çalışıb. Ali məktəbi bitirdikdən sonra isə 8-ci Təcili Yardım Stansiyasında, daha sonra Uroloji Xəstəxanada anestezoloq-reanimatoloq vəzifəsində işləyib, həkimlərin dərin hörmətini qazanıb.

**“Qələbənin sonuna qədər buradayam”...**

Azərbaycan torpaqlarının işğalına biganə qala bilməyib, körpə qızını anasına əmanət edərək 4 aprel 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanıb, Tursşu, Şuşa xəstəxanalarında, Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi fəaliyyət göstərib. Özü ilə 5 tibb bacısını götürərək könüllü döyüşə gedib. Şuşa şəhərinin həbsxanasında olanların qapısının açılmasında onun da xidməti olub. Həbsxananın qapısı açılmasaydı, orada olanlar əsir götürüləcəkdi.

1992-ci il mayın 8-də Şuşanın işğalından bir gün sonra Şuşanı sonuncu tərk edənlərdən biri olub. Anasına göndərdiyi məktubda yazmışdı: “Ana, salam. Mən sağ və salamatam, hər şey normaldır. Bizə yaxşı yemək verirlər. Mən qələbənin sonuna qədər buradayam. Şuşa alınana qədər! Bəlkə də indi alınmadı...”

**Aranzəmində açılan atəş...**

Şuşanın işğalından sonra, Gültəkin Əsgərova Laçının, daha sonra isə Qubadlının müdafiəsində iştirak edib. O, 1992-ci il mayın 14-də Ağdam istiqamətində gedən döyüşlərə yollanıb. Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi yenidən xidmətə başlayıb. Aranzəmin yüksəkliyinin ətəyində onun tibbi xidməti üçün yer ayrılıb. Bura yaralıları hərbçilər gətirməliydi ki, o da əsgərləri müalicə etsin. Lakin atəş səslərinin gücləndiyini eşidib. Burada dayana bilməyib, Aranzəmin yüksəkliyinə qalxıb. Aranzəmin yüksəkliyi uğurunda gedən döyüşdə-1992-ci il 19 iyul saat 15:00-də şəhid olub.

G.Əsgərova Bakıda Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, Əminə adlı qızı yadigar qalıb. Təhsil aldığı 200 saylı orta məktəbə



## Gültəkin Əsgərovanın vəfatından 32 il ötür!

onun adı verilib və büstü qoyulub. 20 noyabr 1993-cü il tarixli 31 saylı fərman ilə ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb.

*Yeganə BAYRAMOVA*

# Azad edilən bölgələrimizdə yeni həyat...

## “Böyük Qayıdış” planı uğurla icra edilir!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış” istiqaməti üzrə hazırlanmışdır**

30 illik mübarizə, səbr və əzmin gücü ilə 44 günlük Vətən müharibəsində Şanlı Ordumuzun şücaəti ilə Qarabağ işğaldan azad edildi. Təbii ki, burada dövlət-xalq birliyinin də böyük rolu var idi. Bu gün uzun illər işğal altında olan torpaqlarımıza yeni bir həyat vermək üçün bütün qüvvələr səfərbər edilib. Belə ki, dağılan şəhərlərimizin, məhv edilməyə çalışılan tarixi irsimizin bərpası işləri davam etdirilir. Eyni zamanda keçmiş məcburi köçkünlərimizin doğma torpaqlarına qayıtdıqdan sonra onların rahat yaşayışını təmin etmək üçün mühüm sosial layihələrin həyata keçirilməsinə xüsusi önəm verilir.

Bəllidir ki, dövlətimiz öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələyə qədəm qoydu. İşğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdış” Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olundu. Ölkə başçısının sərəncamı ilə”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi, qəbul olunmuş digər sənədlər və həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edir.






**Ayaq səslərimiz azad olunmuş bütün ərazilərdə eşidilməkdədir**

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən millət vəkili Məşhur Məmmədov bildirib ki, Qarabağ durmadan canlanır. Artıq Azərbaycan insanının ayaq səsləri işğaldan azad olunan bütün ərazilərdə eşidilməkdədir: “ “Böyük Qayıdış” proqramı çərçivəsində köç karvanları ardarda yola salınır. İşğaldan azad olunan bütün ərazilərimizdə olduğu kimi, Xocalı rayonunun Malıbəyli kəndində də tikinti-quraşdırma işləri davam etməkdədir. “Böyük Qayıdış” Dövlət Proqramı üzrə doğma yurda növbəti köçün ünvanı qədim tarixə malik Malıbəyli kəndi olacaq”.

**Proses 2017-ci ildən başlayıb...**

Deputatın sözlərinə görə, tarixi ədalətin bərpası, keçmiş məcburi köçkünlərin işğaldan azad olunan ərazilərə qayıdışı hələ 2017-ci ildən başlayıb: “O zaman işğaldan azad olunan Cocuq Mərcanlı kəndinə onlarla ailə köçürülmüşdü. Sonra 44 günlük savaş baş verdi və Azərbaycan öz ərazilərini yağı tapdağından azad etdi. Cəmi bir il sonra 30 illik həsrətin son nöqtəsi kimi məcburi köçkünlərin öz ata yurdlarına böyük qayıdışı başladı. Həmin proses bu gün də davam edir.

Özü də proses olduqca sürətli şəkildə aparılır. İşğaldan azad edilmiş ərazilərə “Böyük Qayıdış” prosesi Azərbaycan dövlətinin xüsusi diqqət yetirdiyi prosesdir. Qarabağda və Şərqi Zəngəzurda təmir-bərpa işləri sürətlə gedir. Dövlət tərəfindən “Böyük Qayıdış” planına uyğun olaraq məcburi köçkünlərin doğma yurd-yuvalarına ən qısa zamanda qayıtması üçün bütün imkanlar səfərbər edilib. Həmin ərazilərdə yeni yaşayış məntəqələrinin salınması, infrastrukturun bərpası, yolların çəkilişi, məktəb, xəstəxana tikintisi prosesi həyata keçirilir”.

**Sürətli inkişafımızın açarı...**

Millət vəkili qeyd edib ki, “Böyük Qayıdış” proqramının həyata keçirilməsi təkcə işğaldan azad edilmiş ərazilərimizin deyil, bütövlükdə ölkəmizin daha sürətli inkişafına təkan verəcək: “Böyük Qayıdış” sürətli inkişafımızın açarı deməkdir. “Böyük Qayıdış”ın hər bir mərhələsi “Qarabağ Azərbaycandır!” həqiqətinin təsdiqinə çevrilir.

Son vaxtlar keçmiş məcburi köçkün soydaşlarımızın işğaldan azad edilmiş ərazilərə geri dönüşü barədə tez-tez mətbuatda xəbərlərə rast gəlirik. Qarabağ və Şərqi Zəngəzur böyük tikinti meydançasına çevrilib. İşğal dövründə düşmən tərəfindən tamamilə dağıdılmış, talan edilmiş şəhərlərimizi, kəndlərimizi yenidən qururuq. 2024-cü ildə proses sürətlə davam etməkdədir”.

**Azad edilmiş ərazilərdə ekoturizm...**

Deputat bildirib ki, işğaldan azad edilmiş ərazilərimizdə ətraf mühitin qorunması, ekoturistik standartlara əməl edilməsi və bu baxımdan bölgənin potensialından düzgün istifadə iqtisadi reinteqrasiyada vacib amillərdəndir: “Zəngin flora və faunaya malik meşələr, ecazkar dağ mənzərələri, təbii mineral bulaqları Qarabağ və Şərqi Zəngəzur bölgəsinin ekoturizm potensialını səciyyələndirir. Bölgənin qədim tarixi və mədəniyyəti turistlərin gözündə ərazini daha da cəlbedici edir. Qeyd edim ki, ermənilər hələ işğal dövründə Qarabağ ərazisindən Ermənistana kimi uzanan 500 km-lik “Janapar” adlı ekoturizm marşrutu tərtib etmiş və qanunsuz şəkildə həmin marşrut boyunca ekoturlar təşkil edirdilər. Məlum olduğu kimi ekoturizm yerli icmaya dəstək verən və insanları ətraf mühiti qorumağa təşviq edən bir turizm növüdür. Hazırda məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qaytarılması və onların məşğulluğunun təmin edilməsi dövlətin əsas prioritetlərindən biridir. Bu baxımdan ekoturizm güclü bir iqtisadi alət rolunu oynaya bilər. Ekoturizmin bölgədə inkişaf etdirilməsi ilə həm insanlar əlavə qazanc əldə edə biləcək, həm də ətraf mühitə qarşı daha həssas davranış sərgiləyəcək. Təəssüf ki, hazırda ərazilərimizin böyük hissəsinin mina ilə çirkləndirilməsi bölgənin ekoturizm potensialından tam istifadə edilməsinə mane olur. Gələcəkdə digər bölgələrimizdə olduğu kimi Qarabağ və Şərqi Zəngəzur ərazisində də yeni ekoturizm marşrutlarının tərtib edilməsi gözlənilir. Yalnız təhlükəsizliyin tam bərpasından sonra bölgədə ekoturizmin sürətli inkişafına şahidlik edə bilərik”.

**Laçın sakinlərinin indiki sayı 3009-dur**

M.Məmmədov Laçına yola salınan böyük köç karvanları barədə diqqətçəkən sitatistika da açıqladı: “Böyük Qayıdış” proqramına əsasən, Laçın şəhəri, Sus, Zabux və Qarıkaha kəndi tamamilə hazırdır. Kəndlər üzrə sakinlərin köçünün mütləq əksəriyyəti tamamlanıb. Məlumatlara görə, Laçın şəhəri üzrə köçün növbəti mərhələsi yaxın günlərdə həyata keçiriləcək. Hazırkı dövrədək Laçın şəhərində 534 ailə, daha dəqiq, 1971 nəfərin məskunlaşması təmin edilib. Sus kəndində 215 nəfər olmaqla, 59 ailə, Zabux kəndində isə 823 nəfər olmaqla, 217 ailə məskunlaşıb. Ümumilikdə, Laçın rayonunda hazırda 810 ailə, yəni 3009 nəfər yaşamaqdadır.

Laçında tikinti-quruculuq işləri ilə paralel aparılan başlıca məsələ əhalinin məşğulluğunun təmin edilməsi olub. Ona görə “Zerti” Sənaye Parkının ərazisində mebel, ayaqqabı, dam örtükləri, heyvandarlıq və sair müəssisələrin fəaliyyətə başlaması təmin edilib. Bundan əlavə, Laçın rayonunda çox sayda sənaye və istehsal müəssisəsi işləyir. Bu müəssisələrin hər biri sakinlərin məşğulluğunun təmin edilməsinə xidmət göstərir”.

**Əhalinin 70 faizinin məşğulluğu təmin edilib...**

Parlament üzvünün sözlərinə görə, uğurlu tendensiyalardan biri də odur ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə köçən əhalinin 70 faizinin məşğulluğu təmin edilib: “Dövlətimizin əsas hədəfi köç edən vətəndaşlarımızın məşğulluğunun təmin edilməsidir. Bu proses növbəti illərdə də davam edəcək. Ölkə rəhbərinin dediyi kimi, əhalinin əsas qisminə məşğulluq proqramları xitab etməlidir. Düşünürəm ki, 2030-cu ilə qədər 100 mindən çox keçmiş məcburi köçkün öz yurd-yuvasına qayıda biləcək. Bu müddətə qədər azad olunan ərazilərdə on minlərlə iş yeri açılacaq. Bunun üçün Azərbaycan dövlətinin öz imkanlarını səfərbər edəcəyindən heç kimin şübhəsi yoxdur!”.

*Yeganə BAYRAMOVA*

# İdman

## “Qarabağ” Azərbaycan millisinin qapıçısını transfer edib




“Qarabağ” yeni mövsüm üçün növbəti transferini reallaşdırıb. Ağdam təmsilçisi Azərbaycan millisinin qapıçısı Şahrudin Məhəmmədəliyevi heyətinə cəlb edib. Tərəflər arasında 1 illik müqavilə imzalanıb. Ötən mövsümdə Türkiyənin “Adana Demirspor” klubunun formasını geyinən oyunçu 2025-ci ilin yayına qədər “Qarabağ”da çıxış edəcək. Ş.Məhəmmədəliyev 2016-2024-cü illərdə də Ağdam klubunun şərəfini qoruyub. O, 2024-cü ilin yayında “Qarabağ”dan Türkiyə klubuna transfer edilib. Qolkiper “Qarabağ”da 7 dəfə Azərbaycan çempionu olub, 3 dəfə ölkə kubokunu qazanıb. Qeyd edək ki, Şahruddin Məhəmmədəliyev Azərbaycan milli komandasında 29 oyun keçirib.

## “Yuventus”da yeni müdafiəçi




İtaliyanın “Verona” klubunun müdafiəçisi Xuan Kabal A Seriyasının digər komandası “Yuventus”a transfer olunub. 23 yaşlı futbolçu tibbi müayinədən keçmək üçün artıq Turin şəhərinə yollanıb. “Yuventus” kolumbiyalı futbolçunun transferi üçün 10 milyon avro ödəyəcək. Anlaşmaya əsasən “Verona” bonus olaraq daha 2 milyon avro qazanacaq. 2022-ci ildən “Verona” klubunun formasını geyinən X.Kabal bu müddət ərzində 33 oyunda meydana çıxıb.

## Futzal komandamız Avropa Universitet Oyunlarında beşinci yeri tutub



Azərbaycan İdman Akademiyasının futzal komandası Macarıstanın Debretsen şəhərində tələbələr arasında keçirilən 5-ci Avropa Universitet Oyunlarında uğurla çıxış edib. Turnirdə Macarıstan, Almaniya, Polşa, Fransa və Çexiyanı məğlub edən kollektiv 1/4 finalda İspaniya ilə qarşılaşıb. Rəqib 3:3 hesablı bərabərliklə bitən görüşün penaltilər seriyasında qalib gəlib. Bununla da Avropa Universitet Oyunlarında Azərbaycanın futzal komandası tarixində ilk dəfə 5-ci yeri tutub.

## “Real Madrid” İspaniya millisinin üzvü ilə yeni müqavilə imzalayıb




İspaniyanın “Real Madrid” komandası futbolçusu Lukas Vaskeslə yeni müqavilə imzalayıb. Klubun rəsmi saytına istinadən xəbər verir ki, 33 yaşlı yarımmüdafiəçi ilə sözləşmənin müddəti 2025-ci il iyun ayının 30-dək uzadılıb. 2014-cü ildən Madrid təmsilçisinin əsas komandasında çıxış edən təcrübəli oyunçu 10 mövsüm ərzində 21 titul qazanıb. O, “kral klubu”nun heyətində 349 oyun keçirib və 36 qol vurub. L.Vaskes 9 dəfə İspaniya millisinin formasını geyinib.

## Ölkəmizdə 8 yeni voleybol klubu yaradılıb



Azərbaycanda bölgələrdə voleybolun inkişafı, aşağı yaş qruplarının yaradılması, gənc qız və oğlanların sağlam həyat tərzinin təmin olunması məqsədilə 8 Regional Voleybol Klubu (RVK) yaradılıb. Azərbaycan Voleybol Federasiyasının (AVF) İdarə Heyətinin geniş iclasında Federasiyanın baş katibi Faiq Orucov bildirib ki, bu məqsədlə RVK-lar və Yüksək Liqada çıxış edən klublar arasında müqavilələr imzalanacaq. Beləliklə, “Sumqayıt RVK” (qız), “Şərqi Zəngəzur RVK” (qız) “Abşeron VK”nın, “Bakı RVK” (qız, oğlan), “Oğuz RVK” (qız, oğlan), “Sumqayıt RVK” (oğlan) “Azərreyl”in, “Naxçıvan VF” (oğlan), “Şərqi Zəngəzur RVK” (oğlan), “Tovuz RVK” (qız, oğlan), “Hacıqabul RVK” (qız, oğlan) Murov Az Terminal VK”nın, “Gəncə RVK” (oğlan) “Neftçi VK”nın, “Naxçıvan VF” (qız) “Milli Aviasiya Akademiyası VK”nın, “Gəncə RVK” (qız) isə “Gəncə VK”nın nəzarətinə verilib.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4340
Sifariş: 1597
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova